

# İrəvanın “sülh” oyunları

**Azərbaycan xarici siyasətinin gündəmində dayanan əsas məsələlərdən biri, şübhəsiz ki, Ermənistanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin imzalanmasıdır. Rəsmi İrəvanın destruktiv siyasəti burada da öz sözünü deyir. Onlar bu məsələdə “bir addım irəli, iki addım geri” prinsipi ilə hərəkət edirlər. İrəvan konstitusiyada Azərbaycana qarşı ərazi iddiasına əsas verən müddəaları aradan qaldırmaqda maraqlı görünmür.**

*(ardı 4-cü səhifədə)*





Xalqın qəzeti!

# Xalq qəzeti

№ 230 (30634) 19 oktyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Regionun İstanbul nəbzi və Bakı–İrəvan sülh gündəmi

## Ziddiyyətlər də var, ümid közərtisi də




**“3+3” regional məşvərət formatının İstanbulda keçirilmiş görüşünü ölkəmiz üçün maraqlı edən əsas məsələ bu platformada Azərbaycan–Ermənistan sülh gündəmi ilə bağlı diskussiyaların getməsidir. Nəzərə alaq ki, mövcud xüsusda vurğulanmalı bir sıra məqamlar var və yazımızda onlardan söz açacağıq.**

Əvvəlcə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun çıxışına diqqət yetirək. Cənab Bayramov kənar qüvvələrin təhlükəli gündəliklərlə, o cümlədən, ziddiyyətli hərbiləşdirmə ilə geosiyasi eskalasiya və bölücü xətləri regionumuza proyeksiya cəhdlərini artırmaları fonunda, regional fəaliyyət və dialoqun daha vacib olduğunu vurğulayıb. Bu mesaj, şübhəsiz, Ermənistana yönəlib, çünki bölgəyə aidiyyatı olmayan güclərin əlində alətə çevrilən rəsmi İrəvandır. Bəs hazırkı şəraitdə nə edilməlidir? C. Bayramov bildirib ki, region dövlətləri beynəlxalq hüququn prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, daxili işlərə qarışmama əsasında bölgəyə sahib çıxmalı, onun problemlərinin həlli yollarını məhz region çərçivəsində axtarmalı, təhlükəsizliyi bölünməz anlayış olaraq qəbul etməlidirlər. Yəni indiki durumda “3+3” regional məşvərət formatı məhz bu xüsusda aktiv fəaliyyət göstərməlidir.

*(ardı 3-cü səhifədə)*

## Türkiyə Prezidenti xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqımızı Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib.**

Prezident Rəcəb Tayyib Ərdoğan bununla bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: “Dostumuz, qardaşımız, “iki dövlət, bir millət” anlayışına sahib olduğumuz Azərbaycanın 18 Oktyabr – Müstəqilliyin Bərpası Gününü təbrik edirəm. Prezident və dəyərli qardaşım İlham Əliyevə, bütün Azərbaycan xalqına salamlarımı və sevgimi çatdırıram”.

## Qərbin Gürcüstan avantürası



Səhifə ⇨ 5

## Bu il 1,3 milyard manat büdcə borcu qaytarılıb



Səhifə ⇨ 8

## “Yaşıl” maliyyə Bakı müzakirələrində aparıcı hədəf olacaq



Səhifə ⇨ 9

## Paşinyanın “Real Ermənistan” nağılı



**Ermənistan baş naziri Nikol Paşinyanın informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən Renderforest kompaniyasını ziyarəti zamanı etdiyi çıxışda bir neçə maraqlı məqam var. Ən maraqlısı isə erməni baş nazirin optimizmi və həmin optimizm fonunda “Real Ermənistan” məsələsini gündəmə gətirməsidir. Əvvəlcə Nikolun fikrini əsaslandırmaq üçün dediklərinə diqqət yetirək: “Çoxlarına qəribə gələcək açıqlama vermək istəyirəm”.**

Deməli, Paşinyan hələ öncədən də söyləyəcəklərinin mənasız olduğunu bilir, amma yenə danışır. O deyir ki, Ermənistanın gələcəyi ilə bağlı 2018 və ya 2019-cu ilə nisbətən daha nikbindir. Erməni baş nazir fikirlərini ətraf mühit müstəvisində dilə gətirsə də, tam hiss olunur ki, vurğuladığı cəhət fərqlidir. Yəni Nikol söhbəti siyasətə çəkir.

*(ardı 6-cı səhifədə)*



## Üzgüçülüyə maraq artır

Səhifə ⇨ 11

# Azərbaycan energetiklərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Energetika sahəsinin inkişafında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Xəlilov Sahib Hacıbala oğlu
Nəsirov Tahir İsa oğlu
Rzayev Oqtay Bahadur oğlu
Sadıqov Nadir Ağa Cəfər oğlu
Süleymanov Fəzayıl İmaməli oğlu

**"Tərəqqi" medalı ilə**

Cəfərov Namiq Ağamusa oğlu
Dadaşov Elçin Zavir oğlu
Eyvazov Zal Eyvaz oğlu
Əkbərov Azər Adil oğlu
Əliyeva Səbinə Əliyəddin qızı
Hüseynova Bəturə Nurəddin qızı
İskəndərov Mayıl Xizri oğlu
İsmayılov Ariz Balaqardaş oğlu
Qasımov Nemət Xankişi oğlu
Mahmudov Elmar Nadir oğlu
Məmmədov Elşən Paşa oğlu
Məmmədzadə Araz Bəxtiyar oğlu
Mirzə Ağayev Fərid İsmayıl oğlu
Nuriyev Elbrus Zakir oğlu
Pənahov Bəhram Nəsir oğlu
Rəfiyev Adil Mirzə oğlu
Rzayev Bəşir İsmayıl oğlu
Sadıqov Sadiq Yusif oğlu
Səfərov Taleh Rəsul oğlu
Vəliyev Ramiz Zirəddin oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 oktyabr 2024-cü il**

# Milli Məclisin növbəti plenar iclası

**Oktyabrın 18-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.**




Milli Məclisin sədri iclası açaraq Azərbaycanın müstəqilliyi tarixindən danışıb, müstəqilliyimizin bərpasından sonra üzləşilən çətinliklərə toxunub, ulu öndər Heydər Əliyevin misilsiz idarəçilik məharəti və siyasi uzaqgörənliyi, əzmkarlığı və yorulmaz səyləri nəticəsində Azərbaycanı fəlakətlərdən xilas etdiyini bildirib. O diqqətə çatdırıb ki, Ümummilli liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycanı zirvələrə yüksəldib.

Sonra iclasda cari məsələlər müzakirə olunub, gündəliyə daxil olan məsələlərin müzakirəsi keçirilib.

İlk məsələ (üçüncü oxunuş) olan "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarında dəyişiklik edilməsinə dair qanun layihəsi barədə Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib. Qanun layihəsi qəbul edilib.

Növbəti 5 məsələ (ikinci oxunuş) – Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda, "Milli Məclisin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda, "Turizm haqqında" Qanunda, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri barədə məlumat verilib. Hər beş qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Daha sonra məzmun və mahiyyətcə bir-birinə yaxın olan Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə – "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirəyə çıxarılıb və ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib..

Sonra müzakirə edilən 7 məsələ isə birinci oxunuşdakı qanun layihələri olub. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunda, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. Qanun layihələri birinci oxunuşda qəbul olunub.

Sonra Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə də bir-birinə yaxın olduğunu diqqətə çatdırıb. Qanun layihələri barədə məlumatlar təqdim olunandan sonra sənədlərin müzakirəsi birgə keçirilib.

Deputat Kamal Cəfərov Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirib ki, qanun layihəsi yaşıllıqlar və heyvanlar aləminin mühafizəsi ilə bağlıdır. Bu məqsədlə də layihədə qanunvericiliyin çəkindirici xarakterinin gücləndirilməsi təklif olunub.

On ikinci məsələni – "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı isə Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev təqdim edib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun deputatların qaldırdıqları məsələlərə dair arayışı dinlənildikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Növbəti məsələni – "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Komitə sədri bildirib ki, layihə əhalinin dərman vasitələrinə olan ehtiyaclarının qarşılanması, əlçatanlığın və keyfiyyətin artırılması, habelə sığortaolunanların maraqlarının qorunmasına hüquqi zəminin yaradılması məqsədilə hazırlanıb.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Gündəliyin sonuncu məsələsi – "Torpaq icarəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumatı parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev diqqətə çatdırıb.

Müzakirələrdən sonra hər iki qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

**XQ**

# XİN rəhbərlərinin İstanbulda 3-cü görüşü




**Oktyabrın 18-də Xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının İstanbul şəhərinə işgüzar səfəri çərçivəsində "3+3" regional məşvərət formatının görüşündə iştirak və çıxış edib.**

Çıxışda ölkəmizin təhlükəsizlik, iqtisadiyyat, ticarət, energetika, nəqliyyat-kommunikasiyalar, ətraf mühitin mühafizəsi, təbii və texnogen fəlakətlər və sair istiqamətlər üzrə mövcud çağırışların regional əməkdaşlıq imkanlarına çevrilməsinə yönələn baxışı, o cümlədən postmünaqişə dövründə regional sülh və normallaşma prosesi üzrə mövqeyindən ətraflı bəhs olunub.

Mövcud şəraitdə bölgə dövlətlərinin beynəlxalq hüququn prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, daxili işlərə qarışmama əsasında regionumuza sahib çıxmasının, bölgəmizin problemlərinin həll yollarını məhz region çərçivəsində axtarmasının, regional təhlükəsizliyimizi bölünməz anlayış olaraq qəbul etməsinin əhəmiyyəti qeyd olunub.

Ölkəmizin müstəqilliyinin bərpa olunmasından bəri bölgə dövlətləri ilə qarşılıqlı hörmət, maraqlar balansı və legitim təhlükəsizlik narahatlıqları nəzərə alınmaqla qarşılıqlı faydalı əməkdaşlıq etdiyi, bunun nəticəsində Bakı–Tbilisi–Qars, Şimal–Cənub dəhlizi kimi bir sıra regional, o cümlədən qlobal əhəmiyyətli layihələrin həyata keçirildiyi bildirilib. Birgə layihələrimizin Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi, xüsusilə İran ərazisindən keçərək Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən kommunikasiyaların tezliklə tamamlanmasına dair ümidvarlıq ifadə edilib.

Keçmiş münaqişənin yekunlaşması, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ilə regional əməkdaşlıq üçün açılan yeni imkanların fonunda Azərbaycanın Ermənistanla dayanıqlı sülh quruculuğu prosesinin davam etdirilməsi və irəlilədilməsinə dair qətiyyəti bir daha təsdiq olunub.

Sülh prosesinin qarşısında duran maneələrin aradan qaldırılmasının, xüsusilə Ermənistanın təcavüz və işğalının bir daha təkrarlanmayacağı və sülhün daxili siyasi və hüquqi vəziyyətdən asılı olmayacağına zəmanət verən zəruri konstitusiya dəyişikliklərinin vacibliyi vurğulanıb. Mövcud problemlərin gözardı edilməsi ilə dayanıqlı sülh quruculuğunu təxirə salan "yarımçıq sülh"ün Ermənistan tərəfindən təbliğatının "gizli gündəm"in mövcudluğuna dair sual doğurduğu qeyd edilib.

*

Həmin gün Xarici işlər naziri Ceyhun Bayramov İstanbulda Türkiyənin Xarici işlər naziri Hakan Fidanla görüşüb.

Görüşdə Azərbaycan–Türkiyə müttəfiqliyindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə qlobal təhlükəsizlik problemləri müzakirə olunub.

Bölgədə və dünyada sürətlə dəyişən təhlükəsizlik vəziyyətinin fonunda "3+3" formatı kimi məşvərət mexanizmlərinin əhəmiyyətinin daha da artdığı, bölgəmiz üçün ortaq təhdidlərlə mübarizədə əməkdaşlığın vacibliyi qeyd olunub.

Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan–Ermənistan normallaşma prosesi barədə ətraflı məlumat verib.

Türkiyənin qardaş Azərbaycanın bölgədəki sülh və quruculuq səylərini hər zaman dəstəklədiyi, habelə prosesin tezliklə yekunlaşmasına dair ümidvarlıq ifadə olunub.

**XQ**

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə səhifələrində Müstəqilliyin Bərpası Günü ilə bağlı foto paylaşıb.**




# Media nümayəndələri COP29 məkanlarında



**Oktyabrın 18-də media nümayəndələri Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olublar.**

Mediaturda Prezidentin köməkçisi Anar Ələkbərov və COP29 Təşkilat Komitəsinin üzvü, COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, media qurumlarının rəhbərləri və jurnalistlər iştirak ediblər.

İştirakçılara COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məlumat verilib. Media nümayəndələri ərazidə icra edilən tikinti-quraşdırma işləri ilə tanış olublar. COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkil ediləcəyi ərazidə olan iştirakçılar hazırlıq işləri barədə məlumatlandırılıb.

Konfransın keçirildiyi məkan, media mərkəzində yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər barədə də məlumatlar iştirakçılara çatdırılıb.

Sonda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

**XQ**

# Azərbaycan – Ermənistan sülh danışıqları davam etdiriləcək

**Dünən Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında İstanbulda "3+3" regional məşvərət platforması çərçivəsində görüş keçirilib.**

XİN-dən aldığımız son məlumatda bildirilir ki, nazirlər Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş ilə bağlı danışıqları davam etdiriblər. Ən qısa zamanda prosesin yekunlaşdırılması və sazişin bağlanması üçün daha çox səy göstərmək istiqamətində razılıq əldə edilib.

Tərəflər Türkiyənin qonaqpərvərliyini təqdir ediblər.

**XQ**

# Fransalı nazirin Azərbaycanla bağlı fikirləri qərəzlidir

**Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baronun "France İnter" kanalına müsahibəsi zamanı "Azərbaycanın Ermənistana münasibətdə beynəlxalq hüququ pozduğunu" bildirməsi bu ölkənin Azərbaycana qarşı növbəti əsassız və qərəzli münasibətin, beynəlxalq hüquqa dayaz və səthi yanaşmanın göstəricisidir.**

Bu, XİN mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin fransalı nazirin ölkəmiz əleyhinə səsləndirdiyi fikirlərə dair şərhində yer alıb. Azərbaycanın bütün addımlarında beynəlxalq hüququ və ədaləti əsas götürdüyünü diqqətə çatdıran XİN rəsmisi qeyd edib ki, ölkəmizin beynəlxalq hüquqa zidd davrandığını iddia etmək absurddur və Fransanın bunun əksini sübut edəcək heç bir dəlili yoxdur.

Açıqlamanın davamında bildirilir: "Maraqlıdır ki, özünü beynəlxalq hüququn təbliğatçısı və ədalətin təminatçısı kimi təqdim edən Fransa heç zaman Azərbaycana münasibətdə beynəlxalq hüququn bütün norma və prinsiplərinin kobud şəkildə pozulmasını tənqid etməyib.

Bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş, Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya edilmiş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu heçə sayan Ermənistanı qurban kimi təqdim etmək yanlış siyasətdən xəbər verir. Dünyanın bir çox yerlərinə münasibətdə xarici siyasəti iflasa uğramış Fransanın bölgəmizdə destruktiv fəaliyyətinə son qoyulmasını bir daha tələb edirik".

**XQ**

# Regionun İstanbul nəbzi və Bakı–İrəvan sülh gündəmi



(əvvəli 1-ci səhifədə)

Ölkəmizin bölgə dövlətləri ilə qarşılıqlı hörmət, maraqlar balansı və legitim təhlükəsizlik narahatlıqları nəzərə alınmaqla, qarşılıqlı faydalı əməkdaşlıq etdiyini, bunun nəticəsində Bakı–Tbilisi–Qars, Şimal-Cənub dəhlizi kimi bir sıra regional, habelə, qlobal əhəmiyyətli təşəbbüslərin reallaşdırıldığını deyən C.Bayramov əlavə edib ki, Azərbaycan birgə layihələrin Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi, xüsusilə İran ərazisindən keçərək, Şərqi Zəngəzur iqtisadi rayonumuz ilə muxtar respublikanı birləşdirən kommunikasiyaların tezliklə tamamlanmasına ümidvardır. Bu deyim ölkəmizin Naxçıvana yol xüsusunda israrlı olduğunun təsdiqidir. Maraqlı məqam isə odur ki, XİN rəhbərimiz vurğunu həmin yolun İran ərazisindən keçmə prioriteti üzərinə qoyub.

Deməli, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın icrasından boyun qaçırdığından, rəsmi Bakı Naxçıvana yolun alternativ səmtini aktual sayır. Və həm də, Ermənistanın baş naziri Nikol Paşinyanın bir müddət əvvəl MDB Dövlət Başçıları Şurasının iclasında söylədiyi fikirlər nəzərə alınmır. Paşinyan demişdi ki, rəsmi İrəvan Naxçıvana yol xüsusunda İranın Azərbaycana təklif etdiyi şərtləri təklif edə bilər. O, eyni zamanda, Ermənistanın xoş niyyət ifadəsi kimi, həmin yolda daha sadələşdirilmiş mexanizmlərin tətbiqinə hazır olduğunu da vurğulamışdı.

Yeri gəlmişkən, məsələ "3+3" regional məşvərət formatının İstanbul görüşündə də qaldırıldı və bu barədə söz açacağıq. Hələlik isə deyək ki, ölkəmiz Naxçıvana yolu "Azərbaycandan Azərbaycana yol" kimi görür. Söhbət heç bir gömrük və sərhəd nəzarəti olmayan yoldan gedir. Bu, üçtərəfli Bəyanatla İrəvanın üzərinə götürdüyü öhdəlikdir. Bir daha deyək ki, Ermənistan öhdəliyi icra etmir. Tehranla Naxçıvana yol xüsusundakı razılaşmamızın detallarının isə İrəvana heç bir dəxli yoxdur.

Azərbaycan, nazir C.Bayramovun da İstanbul görüşündə ifadə etdiyi kimi, keçmiş münaqişənin yekunlaşması, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ilə regional əməkdaşlıq üçün açılan yeni imkanların fonunda Ermənistanla sülh quruculuğunun davamına və prosesin irəlilənməsinə dair qətiyyətinə sadiqdir. Qarşıda duran başlıca vəzifə isə sülh prosesinə maneələrin aradan qaldırılmasıdır.

Ölkəmizin XİN rəhbəri bu baxımdan Ermənistanın konstitusiya dəyişikliklərinə getməsinin vacibliyini vurğulayıb. Rəsmi Bakıya zəmanət lazımdır ki, erməni təcavüzü və işğalı bir daha təkrarlanmayacaq, sülh daxili siyasi və hüquqi vəziyyətdən asılı durumda qalmayacaq. Ancaq İrəvanda məsələyə fərqli yanaşılır.

Qeyd edək ki, bu günlərdə Ermənistanın Konstitusiya Məhkəməsi ölkənin İstiqlaliyyət Bəyannaməsində yer alan və ana qanunda ifadəsini tapmayan müddəaların ləğvinə dair qərar verdi. Baş nazir N.Paşinyan administrasiyası bunu əsas götürərək, elə fon yaratdı ki, sanki, konstruktivdir və Bakının tələbini yerinə yetirib (bu, açıq şəkildə bildirilməməklə - red.). Şübhəsiz, belə yanaşma yolverilməzdir. Ona görə də C.Bayramov İstanbulda bildirib ki, mövcud problemlərin gözardı edilməsi ilə dayanıqlı sülh quruculuğunu təxirə salan "yarımçıq sülh"ün təbliğatında "gizli gündəm"in mövcudluğuna dair suallar var. Təbliğatçı rəsmi İrəvan və havadarlarıdır. Sual isə həm də o səbəbdən yaranır ki, Ermənistan Konstitusiyasının istinad etdiyi İstiqlaliyyət Bəyannaməsi qalmaqdadır. Sənədin Azərbaycana və Türkiyəyə ərazi iddiaları da həmçinin. Deməli, sülhün perspektivi üçün təhdid aktuallığını saxlamaqdadır. Elə buna görə də yarımçıq sülh təminatlı deyil, yolverilməzdir. Prezident İlham Əliyevin oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən bildirdiyi kimi.

Dövlətimizin başçısının səsləndirdiyi ən mühüm mesaj bu idi ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirmiş və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğulamışdı.

***

Ermənistan Azərbaycanla sülh xüsusunda qeyri-konstruktivliyini, səmimiyyətdən uzaqlığını "3+3" regional məşvərət formatının İstanbul görüşündə də göstərdi. Bunu ölkənin xarici işlər naziri Ararat Mirzoyanın toplantıdakı çıxışından da duymaq mümkündür. A.Mirzoyan deyib ki, Ermənistan Azərbaycana iki ölkənin suverenliyinə və yurisdiksiyasına tam riayət prinsipi ilə dəmir yolu infrastrukturunun yenidən işə salınmasını, sərhəd keçidlərinin və gömrük prosedurlarının sadələşdirilməsini, müəyyən əlavə təhlükəsizlik mexanizmlərinin təminatı yollarını təklif edib: "Ermənistan bunda səmimiyyətlə maraqlıdır və BMT Nizamnaməsinin prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və siyasi müstəqillik prinsipləri əsasında regional kommunikasiyaların inkişafına və qonşuları ilə münasibətlərin möhkəmləndirilməsinə sadiqliyini dəfələrlə nümayiş etdirib".

Göründüyü kimi, Mirzoyan Paşinyanın Naxçıvana yol xüsusunda dediklərini təkrarlayır. Yəni erməni XİN rəhbəri ölkəsinin baş nazirinin, elə özünün və digər həmkarlarının fikirlərini gündəmə gətirməklə, onları "3+3" müstəvisinə daşımaq yolu tutur. Bu baxımdan Mirzoyanın üzərində dayandığı ən mühüm məqamı diqqətə çatdıraq: "Regional əlaqələrin möhkəmləndirilməsinə dair baxışımız Ermənistanın baş nazirinin bir il əvvəl təqdim etdiyi "Dünyanın kəsişməsi" təşəbbüsündə aydın şəkildə əks olunub. Bu layihənin əsas məqsədi avtomobil və dəmir yollarının, boru kəmərlərinin, kabellərin və elektrik xətlərinin bərpası, tikintisi və istismarı yolu ilə regionda və ondan kənarda bütün ölkələr arasında kommunikasiyaları inkişaf etdirməkdir. Bu layihənin həyata keçirilməsi üçün dörd prinsip vacibdir: bütün dövlətlərin suverenliyinə və yurisdiksiyasına hörmət, habelə bərabərlik və qarşılıqlılıq. Həyata keçirilərsə, "Dünyanın kəsişməsi" yüklərin daşınmasında daha yüksək sürət və səmərəliliyi təmin edən qlobal logistik marşrutların tərkib hissəsinə çevrilə bilər".

Bəli, rəsmi İrəvan "Dünyanın kəsişməsi" avantürasını "3+3"ə, bir növ, yamaq etməyə çalışır. O ideyanı ki, məğzində Qərbin, yəni Cənubi Qafqaz üçün kənar qüvvənin regiona daxil edilməsi dayanır. "3+3" isə "region region ölkələri üçündür" şüarı ilə "silahlanıb. Deməli, Ermənistanın öz avantürasını sırımaq cəhdi yolverilməzdir.

Söhbət həm də Azərbaycanın Naxçıvana yol xüsusunda irəli sürdüyü "Zəngəzur dəhlizi" təşəbbüsünə qarşı çıxmaqdan gedir. Qərb Ermənistanı qlobal logistik qovşağın əsas fiquruna çevirmək istəyir ki, ikincinin köməyi ilə bölgəyə təsir mexanizmlərini əlində saxlasın. Daha doğrusu, mövcud istiqamətdə özünə dayaq yaratsın. Əlbəttə, bu niyyət ölkəmizdə yaxşı duyulur. Təkcə ölkəmiz deyil, region dövlətləri də hər şeydən xəbərdardırlar. Ancaq Mirzoyan deyir ki, "Dünyanın kəsişməsi" "bir çox tərəfdaşlarımız tərəfindən müsbət qarşılanıb və İran onların arasında birincilərdən olub".

Ermənistanın əsas tərəfdaşı Qərbdir. İrana gəldikdə, ölkənin "Dünyanın kəsişməsi"ni bəyənməsi kimi bir durumun mütləq mənada olub-olmadığı söyləmək qeyri-mümkündür. Tehran hər zaman bəyan edib ki, regionda sərhədlərin dəyişməsinin əleyhinədir. İrəvan isə həmişə "Dünyanın kəsişməsi"ni Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulmasının yolverilməzliyi kontekstində tirajlayıb. Məhz bu anlamda İranın təşəbbüsü dəstəkləməsindən söhbət gedə bilər. Ancaq heç kəsin Ermənistana qəsb niyyəti yoxdur və bu, Paşinyan və komandasının uydurmasıdır. Uydurma ona görə gündəmdədir ki, əslində, Qərb, yuxarıda da vurğuladığımız kimi, özündən asılı nəqliyyat xabı qurmaq istəyir.

Ermənistan bu qovşağı daim iflic etmək üçün, obrazlı desək, saat mexanimzli bombadır. Nə vaxt istəsə, onu işə salacaq. Region dövlətləri elə bunu da yaxşı bilirlər. Mövcud dolaşıq labirintdə İran nəyə inanır, onu anlamaq, hələlik, çətin olsa da, "3+3" çərçivəsindəki növbəti toplantıların bu baxımdan daha əhəmiyyətli olacağına ümid var.

***R.ƏVƏZ***
***XQ***

# Baş prokurorun Avstriyaya işgüzar səfəri




**Oktyabr 17-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyanaya işgüzar səfər edib.**

Avstriya paytaxt;nda Azərbaycanın Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən "Cinayətin qarşısının alınması və ədalət mühakiməsi yolu ilə insanları və planeti qorumaq - Vyanadan (UNTOC-COP12) Bakıya (UNFCCC- COP29)" adı xüsusi sessiya keçirilib. Məclisdə xarici ölkələrin Vyanada akkreditə olunmuş səfirliklərinin, Avstriya və Taylandın Baş Prokurorluğunun, Beynəlxalq Antikorrupsiya Akademiyasının və Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbər şəxsləri iştirak ediblər.

Sessiyanı giriş sözü ilə açan BMT-nin Baş katibinin müavini, BMTNCİ-nin icraçı direktoru və Vyana Ofisinin rəhbəri Qada Vali ölkəmizdə noyabr ayında keçiriləcək ən böyük iqlim konfransı COP29-a hazırlıq çərçivəsində Azərbaycan sədrliyi tərəfindən görülən işləri yüksək qiymətləndirib.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-a ən yüksək səviyyədə aparılan hazırlıq işlərinin yekunlaşma ərəfəsində olduğunu bildirib. O, COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu və BMTNCİ tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən 15 noyabr tarixində keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiya barədə də iştirakçılara məlumat verib.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev və BMTNCİ-nin ıcraçı direktoru Qada Vali arasında ikitərəfli görüş keçirilib. Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin rəhbərliyi ilə görüşdə COP29 çərçivəsində təşkil olunacaq yüksək səviyyəli sessiyada BƏƏ-nin həmsədrlik etməsinə dair razılıq verilməsinə görə Azərbaycan tərəfinə təşəkkür ifadə olunub.

**XQ**

## Zəfər marafonunun 23-cü günü

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 19 oktyabr



• Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad olunub. Bu barədə Prezident İlham Əliyev "Twitter" hesabında məlumat verib.

• Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozaraq oktyabrın 18-də saat 00:02-dən sonra Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub.Bu barədə Prezident İlham Əliyev rəsmi "Twitter" hesabında bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, bu çirkin əməllər nəticəsində ölən və yaralananlar var: "Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək bir neçə yaşayış məntəqəsini işğaldan azad edib"

• Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib. Ölkə rəhbəri müsahibədə bildirib ki, vəziyyətin hələ də qaynar fazada olmasında Azərbaycanın heç bir təqsiri yoxdur: "Mən dəfələrlə demişəm ki, Azərbaycan nizamlama prinsiplərinə sadiqdir. Bu prinsiplər çoxillik danışıqlar prosesində işlənib hazırlanıb. Mən öz açıq çıxışlarım və bu günlərdə mətbuat nümayəndələri ilə əlaqələrim çərçivəsində təsdiq etmişəm ki, əgər Ermənistan danışıqlar məcrasında özünü konstruktiv apararsa, biz günü sabah hərbi əməliyyatları dayandırmağa hazırıq. Lakin Yerevandan eşitdiyimiz bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə ziddir. Ermənistan rəhbərliyi lap yaxın vaxtlarda baza prinsiplərini faktiki olaraq təkzib edən çox təhlükəli bəyanatlarla çıxış edib".

Ali Baş Komandan daha sonra bildirib ki, prinsip etibarilə Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib. Mən onların çoxsaylı bəyanatları, təhrikçi hərəkətləri və Azərbaycanın dinc əhalisinə hücumları barədə danışmışam. Buna görə də, əgər erməni tərəfi nəhayət, başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq.

• Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədrinin başçılıq



etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət başçısı qəbulda deyib: "Ölkəmiz üçün bu çətin bir dövrdə Sizin gəlişiniz xüsusi məna daşıyır. Bu, bir daha Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq münasibətinin təzahürüdür, həmrəyliyin təzahürüdür. Biz bu hadisələr baş verəndən dərhal sonra Türkiyənin dəstəyini hiss etdik, bu gün də hiss edirik. Əziz qardaşım, hörmətli Prezident çox müsbət və çox dəqiq açıqlamalar vermişdir. Bu açıqlamalar Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə–Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq".

• Müdafiə Nazirliyinin məlumatına görə, oktyabrın 18-də gün ərzində və 19-a keçən gecə cəbhənin Ağdərə–Ağdam, Füzuli–Hadrut–Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları davam edib. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir. Eyni zamanda məlum olub ki, bir çox istiqamətlərdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən



taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

İşğal olunmuş ərazilərdə döyüş mövqelərindən qaçan hərbi vəzifəlilərin, könüllülərin, həmçinin Ermənistana köç etmək istəyən 55 yaşına qədər kişilərin qarşısını almaq məqsədilə yollarda komendant postları qurulub. Bu məntəqələrdə avtomobillərin yoxlanılması zamanı çoxlu sayda silah-sursat, hərbi geyim və ləvazimat, eləcə də yataq dəstlərinin döyüş bölgəsindən çıxarılaraq Ermənistana daşındığı məlum olub.

• Cəbrayıl və Füzuli istiqamətində düşməndən ələ keçirilən hərbi qənimətlərin videogörüntüsü yayılıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 61 mülki şəxs həlak olub, 282 nəfər xəsarət alıb, 1846 ev, 90 çoxmənzilli yaşayış binası və 341 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Düşmənin mülki əhalini atəşə tutması nəticəsində Ağdam rayonunda üç nəfər, o cümlədən Azərbaycan Televiziyasının əməkdaşı xəsarət alıb.

***XQ***

# Özbəkistan Prezidentinin Azərbaycan XKX rəhbəri ilə görüşü

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bu ölkədə işgüzar səfərdə olan Azərbaycan Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Orxan Sultanovu qəbul edib.**



Orxan Sultanov Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını Özbəkistanın rəhbərinə çatdırıb.

Görüşdə ölkələr arasında indiyədək imzalanan sənədlərin həyata keçirilməsi kontekstində Özbəkistan–Azərbaycan müttəfiqlik münasibətlərinin və çoxşaxəli əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri nəzərdən keçirilib.

Müxtəlif səviyyələrdə davam edən intensiv təmaslar, səmərəli görüşlər, qarşılıqlı ticarətin daha da genişləndirilməsi, mədəni-humanitar sahədə əməkdaşlıq layihələrinin dəstəklənməsi və sürətləndirilməsi istiqamətində tərəflərin atdığı addımlar xüsusi məmnunluqla təqdir olunub.

Söhbət zamanı terrorizm, ekstremizm və radikalizm, kibercinayətkarlıq və digər müasir təhlükəsizlik çağırışları ilə mübarizədə idarələrarası sıx qarşılıqlı əməkdaşlığın və kəşfiyyat xidmətlərinin səmərəli əlaqələndirilməsinin gücləndirilməsinin vacibliyinə diqqət çəkilib.

*K.QULU*
*XQ*

# İrəvanın "sülh" oyunları



(əvvəli 1-ci səhifədə)

Azərbaycan tərəfi üçün isə bu məsələ artıq, necə deyərlər, qırmızı xəttə çevrilib. Ölkəmiz sülh sazişi layihəsi üzrə müzakirələr başlanandan etibarən Ermənistan tərəfinin öz konstitusiyasında, parlamentin bir sıra qərarlarında, eləcə də 44 günlük Vətən müharibəsindən sonra müxtəlif beynəlxalq məhkəmələrə müraciətlərində, rəsmi yazışmalarında və beynəlxalq təşkilatlar çərçivəsində yaydıqları məktublarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialara son qoymağa çağırışlar edib. Buna baxmayaraq, indiyə qədər bu istiqamətdə rəsmi İrəvan tərəfindən hər hansı əməli addım atılmayıb. Üstəlik, Nikol Paşinyanın özü və onun kabinetinin digər üzvləri bu istiqamətdə tədbirlər görmək əvəzinə, heç bir praktiki əhəmiyyəti olmayan təkliflər səsləndirirlər. Bu isə anlaşılmazlıq yaradır və qəbuledilməzdir. Belə təkliflərdən biri sülh sazişi üzrə danışıqların tam yekunlaşmadan imzalanması kimi absurd təklifdir.

Azərbaycanın prinsipial mövqeyi dünən Xarici İşlər naziri Ceyhun Bayramov tərəfindən İstanbulda "3+3" formatında keçirilən görüşdə bir daha bəyan edilib. Nazir qeyd edib ki, Azərbaycan region ölkələri ilə ümumi çağırışların qarşısının alınması üçün konsepsiya hazırlayıb. Onun sözlərinə görə, Ermənistan regionda davamlı sülh üçün konstitusiyasına dəyişiklik etməlidir: "Azərbaycan region ölkələri ilə təhlükəsizlik, iqtisadiyyat, ticarət, energetika, nəqliyyat, rabitə və ətraf mühit sahəsində ümumi çağırışların qarşısının alınması üçün konsepsiya hazırlayıb. Postmünaqişə dövrü kimi kritik məqamda regionda dayanıqlı və davamlı sülhün təmin olunması üçün artıq arxada qalmış münaqişənin nəticələrinin konstitusiya dəyişiklikləri yolu ilə aradan qaldırılması vacibdir".

Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz **Qərbi Kaspi Universitetinin professoru, politoloq-diplomat Fikrət Sadıxov** XQ-yə açıqlamasında bildirdi ki,



bizim bütün təkliflərimiz Ermənistan tərəfinə təqdim edilib. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi təkliflərimizin və şərtlərimizin nədən ibarət olduğunu bilir. Nikol Paşinyan iqtidarı, sadəcə, özünü necə deyərlər, sülh göyərçini kimi qələmə verərək, dünyaya bəyan edir ki, guya, Azərbaycan Ermənistanın təkliflərinə cavab vermir: "Niyə vermirik? Əgər verməsəydik, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin 75-80 faizinin razılaşdırılması mümkün olmazdı. Amma biz konkret, praqmatik şərtlər irəli sürürük. Tələb edirik ki, onlar bizə olan ərazi iddialarından birdəfəlik əl çəksinlər. Əgər onların əsas qanununda indiyədək ərazi iddiaları qalırsa, biz onlarla necə saziş imzalaya bilərik?!"

F.Sadıxovun sözlərinə görə, bunlar o qədər aydın və konkret şərtlərdir ki, onu hər kəs, o cümlədən, Ermənistan tərəfi də başa düşür. Amma özünü bilməməzliyə vurur: "Digər səbəb isə odur ki, görünür, Nikol Paşinyan son vaxtlar müəyyən dərəcədə ruhlanıb. Çünki Qərb ölkələri və bir sıra beynəlxalq təşkilatlar, necə deyərlər, onun başını sığallayırlar. Ehtimal etmək olar ki, bu da ona müəyyən dərəcədə ruh verir. Paşinyan hesab edir ki, belə bir vəziyyətin qalması onun üçün heç bir təhlükə yaratmayacaq. Bu, öz-özlüyündə, əlbəttə, yanlış bir mövqedir. Bu mövqe heç vaxt regionda sabitliyin, əmin-amanlığın və təhlükəsizliyin bərqərar olmasına gətirib çıxarmayacaq. Yəni, gördüyümüz kimi, bir tərəfdən Ermənistanın əsas qanununda ərazi iddiası qalır, digər tərəfdən İrəvan 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarını yerinə yetirmir – mən xüsusilə Zəngəzur dəhlizinin açılmasını nəzərdə tuturam – buna paralel olaraq bizi ittiham edir. Bu nədir? Bu nə hoqqabazlıqdır?!"

Politoloq qeyd etdi ki, biz Ermənistanla bütün müddəaları razılaşdırılmış sülh müqaviləsinin imzalanmasına hazırıq. Amma, eyni zamanda, artıq bəyan etmişik bizə hansısa vasitəçilik missiyası lazım deyil. Nə ATƏT-in Minsk qrupu, nə hansısa beynəlxalq təşkilat, nə də Avropa ölkələri lazımdır. Çünki biz artıq vəziyyətin necə olduğunu, kimin hansı səfdə qərar tutduğunu yaxşı bilirik. Ölkəmizə qarşı açıq-aşkar qərəzli mövqelər səslənir. Təbii ki, biz hazırda ola bilsin müəyyən dərəcədə gözləmə vəziyyətindəyik. Amma bu gözləmə vəziyyəti də əbədi davam edə bilməz. Çünki biz sülhün tərəfdarıyıq. Ermənistan sülh istəyirsə, o zaman gərək bütün şərtlərə əməl etsin və bununla da məsələ yekunlaşsın. Çətin bir məsələ deyil. Onu mürəkkəbləşdirmək, sadəcə olaraq, Azərbaycanla sülhün yaranmasına maraqlı olmamaq deməkdir.

**Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, politoloq Rasim Musabəyov** dedi ki, Azərbaycanın



sülh müqaviləsini tələm-tələsik imzalamasına ehtiyac yoxdur. Onun sözlərinə görə, COP29-un, hansısa digər tədbirin keçirilməsi sülh müqaviləsinin imzalanmasının tezləşdirilməsi üçün əsas rolunu oynaya bilməz. Torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı, ermənilər BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Baş Assambleyanın, bir sıra digər təşkilatların çağırışlarına əməl etmədilər, məsələ xeyli uzandı: "İndi nə olub? Şükürlər olsun ki, sərhəddə sabitlikdir. Müharibə yoxdur, qan tökülmür. Azərbaycan tərəfi tələm-tələsik sülh müqaviləsi imzalamağa, hansısa natamam sənədə dərkənar qoymağa lüzum görmür".

R.Musabəyov qeyd etdi ki, aparılan danışıqlar zamanı üç bənd razılaşdırılmamış qalıb. Nikol Paşinyan özü çıxışı zamanı demişdi ki, onlardan biri, demək olar ki, razılaşdırılmağa tamamilə yaxındır. İkincisi üzrə razılığın səviyyəsi əllinin əlliyədir, üçüncüsü üzrə razılıq yoxdur: "Zəhmət çəksinlər, bu məsələlərlə də bağlı öz mövqelərini Azərbaycanın mövqeyinə yaxınlaşdırsınlar və müfəssəl bir sənəd imzalansın. Ona görə də mən düşünmürəm ki, burada hansısa dramatik hadisə baş verir. Sadəcə olaraq, mövqelər yaxınlaşdırılmayıb və indi şifahi şəkildə o proses gedir. Tərəflər variantlarla bağlı bir-birinə məlumatlar, təkliflər verirlər. Düşünürəm ki, razılaşma əldə olunduğu halda biz deyə biləcəyik ki, irəliləyiş var. Ancaq təkrar etmək istəyirəm ki, Azərbaycan Ermənistanla tələm-tələsik hansısa sənəd imzalamağa ehtiyac duymur".

Deputat əlavə etdi ki, iki ölkənin razılaşma əldə edəsi digər məsələlər də var. Məsələn, nəqliyyat kommunikasiyalarının açılması, ATƏT-in Minsk qrupunun buraxılması və sair: "Minsk qrupunun buraxılması sülh müqaviləsində əksini tapmaya da bilər. Amma zəhmət çəkib birgə bəyanata imza atsınlar. Yəni Azərbaycan və Ermənistan tərəfindən ATƏT-ə qrupun fəaliyyətinə xitam verilməsi ilə bağlı birgə müraciət edilsin. Bunu heç parlamentdə ratifikasiya etməyə də ehtiyac yoxdur.

Yaxud konstitusiyada dəyişikliklər məsələsi. Biz başa düşürük ki, bu, vaxt tələb edən işdir. Amma buyursunlar, konstitusiyada bizə ərazi iddialarına əsas verən müddəalarla bağlı sülh müqaviləsi imzalananda Ermənistan hökuməti bu məsələni hazırlayıb müzakirəyə çıxarmağa boyun olsun. Bu variant da mümkündür".

R.Musabəyovun sözlərinə görə, hər hansı sənəd təkcə imzalamaqla qüvvəyə minmir. Sənəd imzalandıqdan sonra qüvvəyə minməsi üçün müəyyən prosedurlardan keçməlidir: "Mən heç də düşünmürəm ki, o prosedurlar qısa zamanda həyata keçiriləcək. Xeyr! Biz təbii olaraq, Ermənistanın imzalandıqdan sonra bu sənədə konstruktiv yanaşıb-yanaşmamasını da izləyəcəyik. Əks-təqdirdə bu sənəd Azərbaycan parlamentindən keçəsi deyil. Yəni düşünürəm ki, bütün bu məsələlər tərəflər üçün bəllidir, aydındır. Buna görə də, əslində, görüşməyə və nəyisə müzakirə etməyə ehtiyac yoxdur. Bir daha qeyd etmək istəyirəm ki, Ermənistan Azərbaycanın tələblərinin nədən ibarət olduğunu yaxşı bilir. Buyursunlar, o tələblərə əməl etsinlər. Sərhədlərin açılmasını istəyirlərsə, zəhmət çəkib Meğridən keçən dəmiryolunun bərpası ilə bağlı qərar qəbul etsinlər. Yəni elə məsələlər var ki, onlar daha müzakirə tələb etmir. Qərarlarının qəbul olunmasını tələb edir. Biz də o qərarların qəbul olunmasını səbrlə gözləyirik".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin rəhbəri Fərid Şəfiyev** isə bildirdi ki,



sülh sazişi ilə bağlı razılaşma yoxdur, eyni zamanda, biz ermənilərin COP29-dan istifadə edərək Azərbaycana qarşı hücumlar təşkil etməyə çalışdıqlarını görürük: "Halbuki, elə COP29-un Bakıda keçirilməsi ilə bağlı ötən ilin dekabrında Ermənistanla konsensus əldə edilmişdi. Amma hazırda onlar tərəfindən ikitərəfli oyun oynanılır. Ən əsas məsələ sülh sazişi üzrə aparılan işdə irəliləyişin olmamasıdır. Biz hər hansı irəliləyiş müşahidə etmirik. Sülh sazişi üzrə üç məsələ ilə bağlı hələ də razılıq yoxdur".

Onu da qeyd edək ki, son vaxtlar Ermənistan və Azərbaycanın rəsmi şəxsləri arasında təmasların olmaması da diqqəti cəlb edir. Məsələn, Azərbaycan və Ermənistan xarici işlər nazirləri sentyabr ayında Nyu–Yorkda BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirak etsələr də, onlar arasında görüş keçirilməmişdi. Həmçinin, Azərbaycan Prezidenti və Ermənistan baş naziri oktyabrın 7-8-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Moskvada səfərdə olsalar da, liderlər arasında ikitərəfli və ya Rusiya Prezidentinin də iştirak edə biləcəyi üçtərəfli görüş olmamışdı. Bundan əlavə, Azərbaycan və Ermənistan parlament sədrlərinin bir neçə gün öncə Parlamentlərarası İttifaqın Cenevrədə keçirilən 149-cu assambleyası çərçivəsində görüşü baş tutmamışdı.

Bütün bunlar onu deməyə əsas verir ki, rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyi daha Ermənistan rəsmiləri ilə görüşlərin keçirilməsini mənasız edir. Ermənistan baş nazirinin də bildirdiyi kimi, ölkəsinin ciddi hərbiləşmə siyasəti apardığını, son illərdə bir neçə milyard dollarlıq silah tədarükü müqavilələrinin imzalandığını, hərbi sənayeni inkişaf etdirdiyini nəzərə alaraq, İrəvanın sülh prosesinə ciddi yanaşdığını iddia etməsi siyasi manipulyasiyadır. Qarşı tərəfin bu gün tutduğu kurs bölgənin beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafı və tərəqqisinə mane olmağa xidmət edir. Azərbaycan isə Cənubi Qafqazda sülhün əldə olunması istiqamətində səylərini davam etdirir və Ermənistandan da sözdə deyil, əməldə adekvat addımlar atmasını gözləyir.

*Səxavət HƏMİD*
*XQ*

## Replika

# İt ulayar – bədbəxtlik gətirər

**Balası atasından betərdir. Söhbət Ermənistanın ikinci prezidenti Robert Köçəryanın oğlu Levon Köçəryandan gedir. Türklər demişkən, "küçük" Köçəryan parlamentin "Ermənistan" fraksiyasının deputatıdır və ağzına gələni danışmağı ilə tanınır. Əlbəttə, L.Köçəryanın nə danışdığına diqqət yetirməmək də olardı. Ancaq məsələ bundadır ki, o, Ermənistandakı revanşist kəsimin təmsilçisidir və dilə gətirdikləri sülh mühitinin formalaşmasına yönələn cəhdləri təhdiddir. Ümumən, atası R.Köçəryan kimi, Levonun da fikirlərində sülhdən əsər-əlamət yoxdur.**



Beləliklə, L.Köçəryan deyib: "İnsanlarımızda yanlış təəssürat yaranıb ki, Paşinyanın (baş nazir Nikol Paşinyan nəzərdə tutulur – red.) müəyyən güzəştlərindən, burada bir az, orada bir az torpaq verilməsindən sonra, nəhayət sülh gələcək, səma mavi və aydın olacaq və biz bölgədə dinc yaşayacağıq. İstəyirəm soydaşlarımız başa düşsünlər: bu ola bilməz, tamam yalandır. Azərbaycanın və Türkiyənin bizi rahat buraxacağına ümid bəsləməyin mənası yoxdur. Onların hakimiyyət orqanlarımızın timsalında, demək olar ki, bütün tələblərini yerinə yetirən nümayəndəsi var. Onların məqsədi Ermənistanı bir dövlət kimi sıradan çıxarmaqdır və dayanmayacaqlar".

Göründüyü kimi, L.Köçəryan ən ağlasığmaz məsələlərdən dəm vurur. Əlbəttə, istəyi həm də Paşinyan iqtidarına qarşı kəskin antipatiya formalaşdırmaqdır. Eyni zamanda, nəzərə alaq ki, ata Köçəryanın hazırda vəziyyəti xoşagəlməzdir. Bala Köçəryan çalışır ki, sərsəm açıqlamalarla ölkə hakimiyyətinə qarşı formalaşdıracağı antipatiya yekunda atasını həbs olunmaqdan qurtarsın. Bu, öz yerində.

Nəzərə alaq ki, L.Köçəryan tipik erməni xislətindəki pislikləri üzə çıxarır. Ənənəvi Azərbaycan və türk düşmənçiliyini körükləməyə çalışır. Amma əbəs yerə belə edir. Çünki erməni cəmiyyəti onsuz da xəstədir. Erməni insanında elə təsəvvür yoxdur ki, Paşinyanın güzəştlərindən sonra Azərbaycan Ermənistandan əl çəkəcək. Yəni sıravi ermənilərin bir çoxu da Levon düşüncəsindədir. Nikolun iqtidarı məhz həmin düşüncənin məhsulu kimi meydandadır.

L.Köçəryanın üzərində dayandığı daha bir məqam var. O deyir ki, Azərbaycan və Türkiyə Paşinyan hakimiyyətini dəstəkləmək üçün çox şey etməyə hazırdır. "Lazım gəlsə, 2021-ci il seçkilərindən əvvəl olduğu kimi, reytinqinə yaxşı təsir edəcəyini anlayaraq, məhbusları geri qaytaracaqlar. Lazım gəlsə, "sülh" adlı kağıza imza atacaqlar ki, əslində, məsələnin sülhlə heç bir əlaqəsi olmayacaq. Lazım gəlsə, sərhəddə kiçik insidentlər, bir növ, mini-müharibələr törədəcəklər ki, Nikol Paşinyan "50 min insanın həyatını xilas etmək üçün addım atdığını" desin. Yəni, ümid yoxdur ki, bu yolla getməklə, daim nədənsə imtina etməklə, belə qonşulara sahib olmaqla, bir gün sülhə nail olacağıq", – deyə "küçük" Köçəryan vurğulayıb.

Əslində, L.Köçəryan heç də yenilik etmir. O baxımdan ki, Paşinyanın, guya, Azərbaycanın və Türkiyənin agenti olmasına dair sərsəmləmələr indinin məhsulu deyil. Sadəcə, yuxarıda da dediyimiz kimi, Robertin oğlu, belə demək mümkünsə, barıtı lap çox eləyir. Onun məqsədini diqqətə çatdırdıq. Daha böyük məqsəd isə Azərbaycan və Ermənistan arasında sülhə maneçilik törətməkdir. Axı əvvəldə də vurğuladıq ki, L.Köçəryan fikirləri ilə Ermənistandakı revanşist və şovinist kəsimin obrazı rolunda çıxış etməkdədir. Ümumiləşdirmə apararaq əlavə edək ki, bu obraz sülh yolundakı istənilən müsbət meyili beşiyindəcə boğmaq niyyətindədir. Ermənistanda isə levonların, robertlərin sayı həddən artıq çoxdur və onların ölkə parlamentində oturmaları, müxtəlif vəzifə tutmaları, hansısa ictimai statusa malik olmaları ciddi problemdir. Həm də ona görə ciddi problemdir ki, bu cür yaramaz xarakter sahibləri hazırda hər şeydən danışır və heç bir çıxış yolu göstərmir və hansısa səmərəli təklif irəli sürmürlər.

Sonda onu deyək ki, Ermənistandakı hazırkı vəziyyətə diqqət yetirərkən, yada qorxaq itlə bağlı bir durum düşür. Qorxaq it sahibinin zənciri boynunda dayanmadan başqa itlərə hürür. Əmindir ki, sahibi onu buraxmayacaq, digər itlər də sahibi yanında olduğuna görə ona yaxınlaşmayacaqlar. Qərb Ermənistanı 44 günlük müharibədən əvvəl sərbəst buraxdı və bu, nə ilə nəticələndi, bütün dünyaya məlumdur. Hazırda isə levonlar, robertlər, sarkisyanlar zəncirdən qırılmış sahibsiz itlərə bənzəyirlər. İşləri-peşələri hürmək, ulamaqdır. Ən pisi isə budur ki, sahibli itlər də onlara qoşulub ulayırlar. İtin ulamağı isə heç yaxşı əlamət deyil.

*Ə.RÜSTƏMOV*
*XQ*

Dövlət müstəqilliyimizin bərpasından 33 il keçir

# 18 Oktyabra aparan yol

**1988-ci ildən SSRİ rəhbərliyinin, xüsusilə M.Qorbaçovun Dağlıq Qarabağda başlanan erməni separatizmini dəstəkləməsi və yürütdüyü ermənipərəst siyasət Azərbaycan cəmiyyətində Moskvaya qarşı ciddi narazılıq yaratmış, narazı əhalinin mərkəzi və yerli hakimiyyət strukturlarının qərarlarına qarşı pərakəndə də olsa etirazı başlamışdı. Əhali SSRİ rəhbərliyindən Dağlıq Qarabağla bağlı ədalətli və obyektiv mövqe tutmasını, Azərbaycanın suveren hüquqlarının qorunmasını və s. tələb edirdi. Həmin dövrdə Azərbaycan Xalq Cəbhəsi kütlələr arasında müəyyən populyarlıq qazansa da, əhalinin bir çox təbəqələri, xüsusilə də ziyalılar, texnokratlar və təsərrüfat fəalları ona o qədər də etibar etmirdilər. Sovet İttifaqı rəhbərliyi artan narazılığın səbəblərini araşdırmaq və hüquq çərçivəsində tədbirlər görmək əvəzinə, kütləvi cəza vasitəsilə xalqı qorxutmaq yolunu seçdi və 1990-cı il yanvarın 20-də Bakıda qanlı faciə törətdi.**



## *Dövlət müstəqilliyinin bərpasının təməllərini Ümummilli lider Heydər Əliyev Naxçıvanda yaratmışdı*

Sovet qoşunlarının Bakıda törətdiyi qırğın Azərbaycan xalqının həm SSRİ, həm də respublika rəhbərliyinə qarşı narazılığı və nifrətini daha da gücləndirdi, hərəkat milli azadlıq mübarizəsi mərhələsinə keçdi. Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək, kəskin bəyanat səsləndirməsi, SSRİ və Azərbaycan rəhbərlərini ittiham etməsi, 1990-cı il iyulun 20-də Vətənə qayıtması xalq hərəkatına həm yeni nəfəs və həm də yeni istiqamət verdi. İyulun 22-də Naxçıvana üz tutan Ulu öndər 1990-cı ilin avqust ayında qədirbilən Naxçıvan əhalisinin kütləvi dəstəyi ilə həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinə deputat seçildi.

Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına deputatlar tərəfindən iclasa sədrlik Heydər Əliyevə həvalə edildi. İclasda onun təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “sovet” və “sosialist” sözləri çıxarıldı.

Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin birinci sessiyasında, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırıldı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında o da analoji qərarlar qəbul etsin.

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri seçilməsi ilə milli-azadlıq hərəkatının mərkəzi də Bakıdan Naxçıvana keçdi və bu hərəkatın lideri də məhz Heydər Əliyev oldu. Nəticədə Azərbaycan cəmiyyətində milli qurtuluş ideyası ətrafında böyük təmərküzləşməyə səbəb oldu, əhalinin bütün təbəqələri, xüsusilə də mütərəqqi dünyagörüşlü ziyalılar, hətta ciddi təqibə məruz qalmış AXC fəalları belə Heydər Əliyevin ətrafında toplaşmağa başladılar.

1991-ci ilin 18 Oktyabrına gedən yol gərgin ictimai-siyasi proseslər və o zamankı hakimiyyətin yaratdığı süni maneələrlə müşayiət olunurdu. 1991-ci ildə İttifaqda, həmçinin Cənubi Qafqazda baş verən hadisələr göstərirdi ki, SSRİ-nin süqutu labüddür. Moskva SSRİ-ni xilas etmək üçün “SSRİ-nin taleyi” məsələsini ortaya atdı. Yeni İttifaq müqaviləsi hazırlanaraq mətbuatda dərc edildi. Layihənin hazırlanmasının iştirakçısı olan Azərbaycan rəhbərliyinin SSRİ Ali Sovetinin sessiyasında onu müdafiə etməsi respublikada birmənalı qarşılanmadı. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev SSRİ-nin saxlanmasına dair Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxsa da, kommunistlər birləşib referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdilər. Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində referendumda iştirak etməmək haqqında qərar qəbul olundu. Azərbaycan hakimiyyəti Qarabağda respublika suverenliyinin təmini ilə əlaqədar SSRİ rəhbərliyinin vədinə inanaraq referendumda iştirak etməklə martın 17-də keçirilmiş “referen-dum”un nəticələri saxtalaşdırdı.

Naxçıvan Muxtar Respublikası referendumda iştirak etmədiyi üçün ona qarşı təzyiqlər genişləndi.

SSRİ Prezidenti M.Qorbaçovun iştirakı ilə 1991-ci il aprelin 23-də Novo-Oqoryovada SSRİ-nin saxlanmasına dair Ümumittifaq referendumu keçirmiş doqquz respublika rəhbərinin görüşü oldu. Görüşdə yeni İttifaq müqaviləsinin imzalanması, konstitusiyanın qəbulu, İttifaq respublikalarında yeni seçkilərin keçirilməsi, sosial-iqtisadi problemlərin həlli istiqamətləri haqqında birgə yekun bəyanat qəbul olundu. Yeni İttifaq müqaviləsi üzərində iş iyun ayının 17-də başa çatdı və onun yekun layihəsi müttəfiq respublikalarının Ali Sovetlərinə göndərildi.

Azərbaycan SSR Ali Sovetinin sessiyası 1991-ci il iyunun 26-da yeni İttifaq müqaviləsini imzalamaq məqsədilə nümayəndə heyəti seçdi. İyulun 23-də Novo-Oqoryovada respublikaların və mərkəzi rəhbərliyin iştirakı ilə keçirilən iclasda yeni İttifaq müqaviləsinin 1991-ci il avqustun 20-də imzalanması qərara alındı.

Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə, Kommunist Partiyasına və Sovet hökumətinə açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi. Ulu öndər 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarından çıxdı.

Azərbaycanda irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə başlandı. Avqustun 22-də fövqəladə vəziyyətin hökm sürdüyü Bakının Nizami meydanında izdihamlı mitinq oldu. Burada respublika rəhbərliyinin dövlət çevrilişinə müsbət münasibəti pislənildi. Mitinq zorla dağıdıldı və onun təşkilatçıları həbs edildi. Avqustun 23-də Azərbaycan Xalq Cəbhəsi (AXC) qərargahı qarşısındakı mitinqdə dinc əhaliyə qarşı güc tətbiq edildi, adamlar xəsarət aldılar. Əhaliyə qarşı bütün zorakılıqlara baxmayaraq avqustun 25–27-də Bakının Azadlıq meydanında bir milyona yaxın adamın iştirak etdiyi mitinqlər keçirildi.

Naxçıvanda üç gün davam edən və 60 mindən çox adamın iştirak etdiyi izdihamlı mitinq və nümayişlər nəticəsində xalq avqustun 26-da Muxtar Respublika Ali Məclisinin fövqəladə sessiyasının açılmasına nail oldu. Sessiyanın qərarına əsasən, Muxtar Respublika ərazisində Azərbaycan Kommunist Partiyasının və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu. Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkilərinin keçirilməsi, Kommunist Partiyası hakimiyyətinin, fövqəladə vəziyyətin ləğv edilməsi, Qarabağda Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edilirdi.

Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edil-məsi haqqında Bəyannamə qəbul etdi.

Sessiyada az əvvəl keçirilmiş referendum nəticələrinin ləğv edilməsi, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamənin legitimliyini təmin etmək üçün yeni referendum keçirilməsi haqqında Heydər Əliyevin tələbi Azərbaycan ha-kimiyyəti tərəfindən müsbət qarşılanmadı. Belə olan halda Naxçıvan MR Ali Məclisi 1991-ci il sentyabrın 3-də Heydər Əliyevi Ali Məclisin sədri seçdi. Ali Məclisinin qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı. Sentyabrın 8-də keçirilən prezident seçkilərində iqtidar xalq arasında böyük nüfuza malik olan Heydər Əliyevin prezident seçilə biləcəyindən təşvişə düşüb qanuna yaş senzi (65 yaşa qədər) və son beş ildə Azərbaycanda yaşamaq haqqında tələbi daxil edildi. Xalq bu məhdudiyyətlərin götürülməsini tələb edir, mitinqlər keçirirdi. Lakin 8 sentyabr seçkilərinin nəticələrinə görə A.Mütəllibov yenidən prezident elan olundu. Keçmiş ittifaq respublikaları prezidentləri arasında A.Mütəllibov ümumxalq səsverməsi yolu ilə seçilən dördüncü prezident (B.Yeltsin, Z.Qamsaxurdiya, L.Ter-Petrosyan) idi.

XX yüzilliyin sonunda ikinci dəfə müstəqillik bayrağını qaldıran Azərbaycan xalqının həyatında baş verən hadisələrdən biri 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi oldu.

Oktyabrın 18-də XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasına Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının layihəsini təqdim etdildi.

6 bölmə, 32 maddədən ibarət olan Konstitusiya aktında yazılırdı ki, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsini qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikasının Ali Soveti 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal bəyannaməsini, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsini rəhbər tutaraq konstitusiya aktını qəbul etdi.

Konstitusiya aktının yekun müddəalarında qeyd olunurdu ki, SSRİ-nin hələ mövcud olduğu şəraitdə dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsi ilə Azərbaycan xalqı 1920-ci ilin aprel ayında bolşevik Rusiyasının işğalı nəticəsində son qoyulmuş müstəqil dövlətini bərpa edir. Aktda Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olunurdu.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İsveçrə (23 dekabr 1991-ci il), İran İslam Respublikası (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), Rusiya Federasiyası (10 aprel 1992-ci il – 109-cu döv-lət olaraq) və başqa dövlətlər tanıdılar.

***Mais ƏMRAHOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri,***
***tarix elmləri doktoru,***
***professor***

# Qərbin Gürcüstan avantürası

**Gürcüstan idarəetmə formasına görə unitar parlament respublikasıdır. Mövcud konstitusiyaya görə, ölkədə icra hakimiyyətini qanunverici orqan formalaşdırır, hökumət parlament qarşısında cavabdehlik daşıyır. Beləliklə, oktyabrın 26-da keçiriləcək parlament seçkiləri zamanı Gürcüstan xalqı həm qanunverici orqanın tərkibini, həm də gələcək hökuməti müəyyənləşdirmiş olacaq. Bu baxımdan qonşu ölkədə bir həftə sonra baş tutacaq seçkilər həm yerli, həm də beynəlxalq ictimaiyyət tərəfindən xüsusi həssaslıqla izlənilir.**

Problem ondadır ki, 26 oktyabr seçkiləri Cənubi Qafqaz regionu üzərində geosiyasi maraqların toqquşduğu, bu maraqlar uğrunda savaşın açıq müstəviyə keçdiyi bir dövrə təsadüf edir. Prezident İlham Əliyevin II Şuşa Qlobal Media Forumunda vurğuladığı kimi, hazırda Cənubi Qafqazda tarixi transformasiya, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar zəifləyir, yeni əməkdaşlıq formatları meydana gəlir. Bu tarixi gedişata müdaxilə etmək, prosesi öz maraqlarına uyğun şəkildə dəyişmək istəyən güc mərkəzləri fəallaşırlar. Regiona yönəlik ekspansiya siyasətini gücləndirən mərkəzlər müxtəlif üsullardan istifadə edərək hadisələrin təbii gedişatını dəyişmək istəyirlər. Böyük güc mərkəzləri Cənubi Qafqazda mövcud olan status-kvonu pozmaq, qüvvələr balansını öz xeyirlərinə dəyişmək, yekunda region üzərində hegemonluqlarını təmin etmək üçün açıq savaş aparırlar. Onlar Gürcüstandakı parlament seçkilərinə də bu kontekstdə yanaşırlar. 26 oktyabr seçkilərinə ikiqat artıq diqqət ayıraraq, seçki prosesini öz maraqlarının təmin edilməsi üçün döyüş meydanına çevirirlər.





**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media analitiki**

Qərb institutları 26 oktyabr parlament seçkilərində Gürcüstan xalqının iradəsinin deyil, özlərinin himayələrində olan siyasi fiqurların qalib gəlməsini istəyirlər. Yeni parlamenti və hökuməti öz istəklərinə uyğunlaşdırmaqla, gələcək planlarını bu platformalar üzərindən gerçəkləşdirməyə cəhd göstərirlər. Onlar öz niyyətlərinə çatmaq üçün fərqli mexanizmlərdən istifadə edirlər. Məsələn, Qərb dövlətlərinin ərazisində məskunlaşmış beynəlxalq statuslu hüquq müdafiə təşkilatlarının Gürcüstana yönəlik bəyanatları son aylar ərzində intensivləşib. “Amnesty İnternational”, “Freedom House”, “Human Rights Watch” qismində təşkilatlar demək olar ki, hər gün Gürcüstana qarşı qondarma əsaslarla bəyanatlar verirlər, qonşu ölkəni guya “insan haqlarını”, “fikir azadlığını”, “siyasi hüquqları” pozmaqda ittiham edirlər. Nümunə üçün qeyd edək ki, təkcə jurnalist təşkilatları son bir ay ərzində–sentyabrın 9-dan oktyabrın 9-na qədər olan müddətdə 6 müxtəlif mövzu üzrə rəsmi Tbilisini qınayan açıqlama yayıblar.

Onların səsləndirdikləri bəyanatlar əsassızdır, təzyiq mahiyyəti daşıyır. Sirr deyil ki, bu təşklatlar “müstəqil” deyillər. Onların Gürcüstana qarşı münasibəti ABŞ Dövlət Departamentinin, Avropa İttifaqı Şurasının siyasi qərarları ilə sinxronluq təşkil edir. Bu təşkilatlar ABŞ və Avropa siyasi çevrələrinin qərarlarının icraçısına çevriliblər. İndiki halda Gürcüstanı hədəf seçmələrinin səbəbi ölkədə oktyabr ayının 26-da keçiriləcək parlament seçkiləri ilə bağlıdır. Qərbin boyunduruğunda sürünən siyasi qrupların bu seçkilərdə qələbəsini təşkil etmək üçün ictimai rəyi çaşdırırlar.

Qərb təşkilatları “İnsan haqları”, “söz və ifadə azadlığı”, “siyasi hüquqlar” mövzusunu öz məqsədləri naminə manipulyasiya edirlər. Hədəf ölkələri bu mövzular üzrə qınaq obyektinə çevirməklə, ABŞ-nin təzyiq göstərməsi üçün zəmin hazırlayırlar. Dünyanın müxtəlif ölkələrində sınaqdan çıxmış bu mexanizmi indi də Gürcüstanda tətbiq edirlər. ABŞ Dövlət Departamenti, Avropa İttifaqı Şurası “Amnesty İnternational”, “Freedom House”, “Human Rights Watch” qismində təşkilatların qondarma bəyanatlara əsaslanıb Gürcüstana sanksiyalar tətbiq edirlər. ABŞ 2024-cü ildə rəsmi Tbilisiyə yardım məqsədilə nəzərdə tutulmuş 95 milyon dollarlıq paketi ləğv edib. Avropa İttifaqı da eyni cür davranaraq, 2024-cü ildə Gürcüstan silahlı qüvvələrinə dəstək üçün Avropa Sülh Fondundan ayırdığı vəsaiti dondurub. Ardınca yeni sanksiyaları elan ediblər. Gürcüstan vətəndaşlarının Avropa ölkələrinə sadələşdirilmiş viza ilə getmək hüququnu məhdudlaşdırmaqla hədələyirlər. Bu yolla Gürcüstan dövlətini və xalqını çıxılmaz duruma salmaq, öz diktələrini qəbul etdirmək istəyirlər.

Gürcüstanda öz maraqlarına çatmaq istəyən xarici güc mərkəzlərinin son anda ictimai sabitliyi pozan elementlərdən də faydalanacaqları istisna edilmir. Seçkinin nəticələrinə etimadsızlıq göstərilməsi, seçkidə məğlub olanlarla qalib gələnlər arasında münaqişələrin, toqquşmaların təşkil ediləcəyi ehtimalı yüksəkdir. Bu baxımdan Gürcüstan ictimaiyyətinin proseslərə həssas yanaşması, emosiyalara deyil, məntiqə, təhlilə əsaslanması zəruridir.

Qeyd etmək zəruridir ki, Azərbaycanla Gürcüstan tarixi, mədəni və mənəvi bağlarla yanaşı, həm də effektiv iqtisadi layihələrə görə yaxındırlar. Bu dövlətlərdən hər hansı birinə qarşı yönəlmiş xarici təhdidlər paralel olaraq, digərinə də təsir göstərmiş olur. Azərbaycan dost və qonşu, həmçinin iqtisadi layihələr üzrə partnyor dövlət olaraq, Gürcüstanda sabitliyin, sülhün təmin edilib saxlanılmasında maraqlıdır.

# Dövlət müstəqilliyimizin bərpasından 33 il keçir

**33 il əvvəl Azərbaycan Respublikasının Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Akt 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra qazanıb. Ulu öndər ölkədə qazanılmış müstəqilliyi qoruyub möhkəmləndirmək üçün xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırıb.**

**2021-ci il oktyabrın 15-də Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni Qanunu təsdiqləyib. Tarixi sənədə əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan olunub.**

**Artıq 1 qərinədir ki, xalqımıza milli azadlığını qazandırmış 18 oktyabr günü ölkəmizdə ən əziz günlərdən biri kimi təntənə ilə qeyd olunur. Dünən Milli Məclis Müstəqilliyin Bərpası Günü münasibətilə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb. Birinci vitse-prezident Mehriban Əliyeva isə Müstəqilliyin Bərpası Günü münasibətilə rəsmi sosial şəbəkə səhifələrində paylaşım edib.**

**Hər il olduğu kimi, bu il də 18 oktyabrda müstəqilliyimizin bərpası ilə bağlı ölkəmizin müxtəlif yerlərində silsilə mədəni-kütləvi tədbirlər keçirilir.**



## Bakı

Müstəqilliyin Bərpası Günü münasibətilə Yasamal rayonunda bayram konserti keçirilib.

Azərbaycan Milli Konservatoriyasında keçirilən şənlikdə "Vətənim" adlı konsert proqramı təqdim edilib. Proqramı Xalq artisti Siyavuş Kərimi və Əməkdar artist Ramil Qasımov təqdim ediblər. Mərasimdə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Milli Məclisin deputatları Göydəniz Qəhrəmanov, Polad Bülbüloğlu, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, həmçinin incəsənət xadimləri və Yasamal rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

**

Milli Kitabxanada Müstəqilliyin Bərpası Günü münasibətilə virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub. Sərgidə mövzu ilə bağlı fotolar, ölkəmizin müstəqillik tarixi, inkişaf yolu, xarici siyasəti ilə əlaqədar kitablar və dövri mətbuat səhifələrində dərc edilən məqalələr nümayiş olunur.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında da Müstəqilliyin Bərpası Günü ilə əlaqədar elektron məlumat bazası, virtual və ənənəvi kitab sərgisi hazırlanıb.

Kitabxanadan bildirilib ki, elektron bazada bu günün təsis edilməsinə dair qəbul edilən rəsmi sənədlər, görkəmli şəxslərin söylədikləri dəyərli fikirlər, "Müstəqilliyin bərpası və qorunub saxlanılması", "Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur", "Heydər Əliyev yolunun davamçısı" kimi tam mətnlər, Azərbaycan Respublikasının dövlət simvolları haqqında məlumatlar yer alır. Bunlarla yanaşı, virtual kitab sərgisində "Heydər Əliyev. Azərbaycan Parlamenti", "İlham Əliyev. İnkişaf – məqsədimizdir", "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir", "Heydər Əliyev – İlham Əliyev. Azərbaycançılığın Zəfər yolu", "Müstəqillik yollarında: Liderlik missiyası", "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri", "Müstəqil Azərbaycan dövlətinin qurucusu", "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kimi kitabların qısa annotasiyası, dövrü mətbuat nümunələri nümayiş olunur.

**





Hərb Tarixi Muzeyində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 33 illiyi münasibətilə "Milli sərvətimiz – müstəqilliyimiz!" adlı tədbir keçirilib.

Muzeyin mətbuat xidmətindən bildirilib ki, tədbirdə A.M.Şərifzadə adına Mədəniyyət Mərkəzinin, Bakı Hərbi Kollecinin, Müdafiə Nazirliyinin idarə və müəssisələrinin nümayəndələri iştirak ediblər. Tədbirdə muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadənin "Xalqımızı müstəqilliyə aparan yol", muzeyin tədqiqatçı-baş elmi işçisi Vahid İsmayılovun "Müstəqillik uğrunda milli azadlıq mübarizəsi" mövzusunda məruzələri dinlənilib və müzakirələr aparılıb.

*

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrində 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü ilə əlaqədar tədbirlər keçirilib.

"Müstəqilliyimizin bərpası: tarixin işığında", "Müstəqilliyimiz əbədidir", "Biz azadıq, biz müstəqilik", "Müstəqilliyin Bərpası Günü", "Vətən mənim bugünüm", "Müstəqil Azərbaycan" adlı tədbirlərdə BŞTİ-nin, rayon icra hakimiyyətlərinin, müxtəlif idarə və təşkilatların nümayəndələri, təhsil müəssisələrinin pedaqoji və şagird kollektivləri iştirak ediblər. Azərbaycanın müstəqilliyinin bərpasının 33-cü ildönümünə həsr olunmuş tədbirlərdə iştirak edən şagirdlər söylədikləri şeirlər, ifa etdikləri mahnılarla Vətənə olan sevgilərini nümayiş etdiriblər. Tədbirlərdə müstəqillik tariximizdən bəhs edən videoçarx və sənədli filmlər də nümayiş etdirilib.

*

**Müstəqilliyin Bərpası Günü münasibətilə ölkənin şəhər və rayonlarında da silsilə mərasimlər, şənliklər keçirilib.**

## Naxçıvan

Naxçıvan Müəllimlər İnstitutunda Müstəqilliyin Bərpası Gününə həsr olunmuş mərasimdə çıxış edən institutun rektoru Azad Novruzov Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasından bəhs edərkən bildirib ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl olub. Odur ki, bu gün Azərbaycan hüququn aliliyi, demokratiya və dünyəvilik prinsipləri üzərində qurulmuş müstəqil dövlət kimi öz inkişafının ən parlaq dövrünü yaşayır. Sonra günün anlam mahiyyətini əks etdirən qısametrajlı videorolik nümayiş olunub, institutun tələbələrinin iştirakı ilə hazırlanan tədbirin bədii hissəsində vətənpərliyə həsr olunmuş müxtəlif məzmunlu şeirlər, solo mahnılar ifa edilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda da Müstəqilliyin Bərpası Günü ilə əlaqədar sərgi açılıb.

## Gəncə

Gəncə Dövlət Universitetində "Azadlığımızın şərəfli tarixi – 18 Oktyabr Müstəqilliyin Bərpası Günü"nə həsr edilən toplantı keçirilib. Universitetin prorektoru Gülsüm Fətəliyeva çıxış edərək dövlət müstəqilliyinin əldə edilməsinin tarixi hadisə olduğunu bildirib. Vurğulayıb ki, ümummilli lider Heydər Əliyev tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və əbədiliyi təmin edilir. Daha sonra universitetin kimya-biologiya fakültəsinin dekanı İsfəndiyar Alverdiyev "Yüksələn və yeniləşən Azərbaycan" adlı məruzəsində ulu öndər Heydər Əliyev siyasətinin Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl olduğunu vurğulayıb.

## Lənkəran

Lənkəranda da "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir" mövzusunda şənlik təşkil olunub.

DQİDK-nın Lənkəran regional bölməsinin əməkdaşları Emin Həmidli, Səyyad Babakişiyev, Lənkəran İslam Kollecinin direktor müavini Cəmaləddin Quliyev və tələbələr iştirak ediblər.

## Kəlbəcər



Kəlbəcər Rayon İcra Hakimiyyətində 18 Oktyabr Müstəqilliyin Bərpası Günü münasibəti ilə tədbir keçirilib. Tədbirdə Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, Kəlbəcər RİH-nin məsul əməkdaşları, rayon idarə və müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev çıxış edərək bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Əslində, Azərbaycan əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

## Cəbrayıl

Cəbrayıl rayonunda Müstəqilliyin Bərpası Gününün 33-cü ildönümü münasibəti ilə təntənəli mərasim keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov iştirakçıları müstəqilliyimizin bərpasının 33-cü ildönümü münasibətilə təbrik edib. İcra başçısı qeyd edib ki, artıq ölkəmiz Heydər Əliyevin yaratdığı siyasi məktəbin davamçısı, möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə demokratik, hüquqi, dünyəvi dövlətdir. Xalqımız azaddır, müstəqildir, sərbəstdir. Son 21 il müxtəlif tarixi hadisələrlə zəngin bir dövr kimi tariximizə yazıldı.

## Xaçmaz

Xaçmaz Rayon İcra Hakimiyyəti və Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib.

Rayon İcra Hakimiyyəti başçısının müavini Günel Nürəddinova bildirib ki, müstəqilliyin ilk illərində xalqımızın yenidən onu itirmək təhlükəsi ilə üzləşdib, böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşub, ölkənin möhkəm əsaslar üzərində yeni inkişaf xətti müəyən edilib. Digər çıxış edənlər də ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən, məqsədyönlü siyasəti sayəsində Azərbaycanın dünya dövlətləri sırasında öz layiqli yerini tutması nəticəsində müstəqilliyimizin daha da möhkəmlənməsindən söz açıblar.

*Hazırladı:*
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Müdafiə Nazirliyi xəbər verir



**18 Oktyabr Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Ordusunun birlik, birləşmə və hərbi hissələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.**

Çıxış edənlər ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında müstəsna xidmətlərindən, müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində apardığı müdrik siyasətdən danışıblar. Ümummilli liderin strateji kursunun hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi xüsusi vurğulanıb. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasəti sayəsində Azərbaycanın hüququn aliliyi, demokratiya və dünyəvilik prinsipləri üzərində qurulmuş müstəqil dövlət kimi öz inkişafının ən parlaq dövrünü yaşadığı diqqətə çatdırılıb.

Keçirilən tədbirlər zamanı vətənpərvərlik mövzusunda sənədli filmlər və bədii kompozisiyalar təqdim edilib, şəhidlərimizin məzarları və tarixi muzeylər ziyarət olunub.

*

**"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İtaliya Respublikasının Baş Qərargahı arasında 2024-cü il üçün imzalanmış ikitərəfli əməkdaşlıq Planı"-na əsasən, Bakı şəhərində "Qərargah danışıqları" keçirilib.**

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə ölkələr arasında güclənən əlaqələrin hərb sahəsinə də müsbət təsirinin olduğu qeyd edilib.

Cari dövrdə həm regional, həm də beynəlxalq təhlükəsizliyin önəmindən danışan tərəflər dünyada sülhün təmin olunması üçün birgə çalışmağın əhəmiyyətini vurğulayıblar. Azərbaycan və İtaliyanın hərb sahəsində qurulan əlaqələrinin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Hərbi-texniki, hərbi təhsil sahələri üzrə əməkdaşlıq fəaliyyətləri təhlil olunub. Təqdim olunan brifinqlərdən sonra qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.



*

**Müdafiə Nazirliyinin hərbi hüquqşünaslarından ibarət nümayəndə heyəti Türkiyəyə işgüzar səfər edib.**

Nazirliyin Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Elçin Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə milli müdafiə nazirinin müavini Şuay Alpay ilə görüşüb.

Görüşdə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normaları, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə hüququn inteqrasiyası və maraq doğuran bir sıra digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

***XQ***

# “3+3”-ün 3-cü görüşü



**Sülh gündəlik, həftəlik, aylıq prosesdir ki, tədricən fikirləri dəyişir, köhnə əngəlləri yavaş-yavaş dağıdır, sakitcə yeni strukturlar yaradır.**

**Con KENNEDİ**

Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında risklərin artdığını siyasilər etiraf edirlər. Bunun başlıca səbəbi böyük güclərin regionda nüfuz və marağın təminatı uğrunda yeni mübarizə səviyyəsinə keçmələri ilə əlaqələndirilir. Eyni zamanda, iki istiqamətdən – Yaxın Şərqdən və Şərqi Avropadan təhlükələr yaxın məkanlara yayılmaqdadır. Həmin regionlardan qaynaqlanan qeyri-sabitlik, xaos və hərbi toqquşmalar riskinin çoxalması qarşısında Cənubi Qafqazın təhlükəsizliklə bağlı nəticəverici addımlar atması lazımdır. Ancaq təcrübə göstərir ki, bu məsələ o qədər də sadə deyildir. Onun da bir neçə özəl səbəbləri var.

## Regional səbəblər

Burada üç məsələ “3+3”-ün reallaşmasına əngəl olaraq qalır. Birincisi, İranın əsaslandırılmamış etirazları. İkincisi, Ermənistanın Azərbaycanla sülh müqaviləsini ədalətli və səmimi yanaşma əsasında imzalamaqdan müxtəlif bəhanələrlə yayınması. Üçüncüsü, hələ də normallaşmayan Rusiya – Gürcüstan münasibətləri.

Bu neqativ faktorların təsiri hələ də qalmaqdadır. Siyasətçilərin və diplomatların ciddi səylərinə baxmayaraq vurğulanan üç səbəbi ortaq müsbət nəticəverici “sahəyə” gətirmək mümkün olmamışdır. Bunu həmin formatda keçirilən ilk iki görüşün nəticələri sübut edir. Hələlik, “3+3”-ə daxil olan ölkələr tam tərkibdə görüşməmişlər. Rəsmi Tbilisi Rusiya nümayəndələri ilə müzakirələrdə iştirak etməyəcəklərində israrlıdırlar. Hətta, 2021-ci ildə həmin formatın Moskvada keçirilən ilk iclasında Gürcüstanın bayrağının da qoyulmasına rəsmi Tbilisi etiraz etmişdi.

Gürcüstan XİN bununla bağlı yaydığı bəyanatda bildirmişdi: “Gürcüstanın bu formatda iştirakını müzakirə etməyəcəyik. Moskvada dekabrın 10-da keçirilən görüşdə Gürcüstan bayrağı təqdim olunub və bu, əlbəttə ki, bizim üçün qəbuledilməzdir. Biz buna müvafiq diplomatik kanallar vasitəsilə reaksiya vermişik”.

Tehrandakı ikinci müzakirədə də Gürcüstan iştirak etmədi. Ermənistan isə iştirak etsə də, orada alınan qərarlara əməl etmir. Rəsmi İrəvan hələlik havadarlarının məsləhəti ilə alternativ platformalardan dəm vurur. Eyni zamanda, formal olaraq “3+3”-dən də imtina etmir. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın üçüncü İstanbul görüşünə qatılması bu baxımdan təsadüfi deyildir.

Ancaq “3+3”-ə törədilən maneələr regional miqyasla məhdudlaşmır.

## Qərbin qeyri-konstruktiv yanaşması

Açıq demək gərəkdir ki, arxa planda Ermənistan və Gürcüstanın “3+3”-ə yanaşmasında qeyri-müəyyən və nəticəverici olmayan mövqe nümayiş etdirmələrində Qərbin ciddi təhrikedici payı vardır. İlk növbədə ABŞ və Avropa İttifaqı (Aİ) Tbilisini hər fürsətdə anti-Rusiya mövqeyinə sürükləyir. Onlar bir tərəfdən, münaqişələrin siyasi-diplomatik həllindən bəhs edirlər, digər tərəfdən isə Cənubi Qafqazda bu prinsipə əməl olunmaması üçün əllərindən gələni edirlər. Bu kimi saxta yanaşmaların nəticəsidir ki, hələ də Rusiya ilə Gürcüstan düşmən kimidirlər.

Ermənistan istiqamətində Qərbin fəaliyyəti bundan fərqli deyildir. Lakin burada məqsəd daha konkret qoyulur: Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra regionda yaranmış müsbət geosiyasi dinamikanı pozmaq. Buna görə də Qərbin “3+3” formatına real dəstək verəcəyini və ya rəsmi İrəvana bu prosesdə səmimi iştrak etməsini tövsiyə edəcəyini gözləmək ağlabatan deyil.

Lakin son zamanlar elə proseslər gedir ki, onlar “3+3” platformasının şansını yüksəldir.

## Oyun qaydaları dəyişir

Regionda Rusiya və Türkiyənin təsirləri artır və bunun fonunda İran regional siyasətində müəyyən korrektələr etməyin zəruriliyini anlamağa başlamışdır. M.Pezeşkianın prezident seçilməsindən sonra xarici siyasətdə ifadə etdiyi əsas tezislərdən biri “bütün qonşularla münasibətləri normallaşdırmaq”dan ibarət oldu. Bunun fonunda İranın Azərbaycan və Türkiyə ilə münasibətlərə yeni konstruktiv təkan verəcəyi gözlənilir. Türkiyənin Xarici işlər naziri Hakan Fidan son müsahibələrinin birində İranla bağlı çox şeyin dəyişdiyini ifadə etmişdir. İstanbuldakı üçüncü görüşdə də İran təmsil olunur.

Bundan başqa, rəsmi İrəvanın da müəyyən məqamlar üzərində düşünməyə başladığı hiss edilir. İndi Qərbin birmənalı olaraq müsbət və konstruktiv geosiyasi rol oynadığı qəbul edilmir. Ermənistan anlamalıdır ki, region dövlətləri olmadan onun hər hansı uğurlu geosiyasi rol oynaya biləcəyini gözləmək absurddur. Gürcüstanın acı təcrübəsi bunu bir daha sübut edir. Əgər Ermənistan müstəqil olmaq istəyirsə, mütləq regional konteksti ciddi surətdə nəzərə almalıdır.

Cənubi Qafqazda geosiyasi oyun qaydalarının yeniləşməsi prosesində Türkiyənin rolunu ayrıca vurğulamaq lazımdır. Ankara təmkinli və qətiyyətli gedişləri ilə Yaxın Şərq, Avropa, Balkanlar, Qafqaz və Mərkəzi Asiya istiqamətlərində getdikcə artan templə fəaliyyətini davam etdirir. İndi Türkiyənin ciddi surətdə geniş bir geosiyasi məkanda xüsusi rol oynadığını hər kəs qəbul edir. Cənubi Qafqaz bu aspektdə ayrıca yer tutur.

Məsələ onunla bağlıdır ki, Cənubi Qafqazda Türkiyənin əsas strateji müttəfiqi vardır. Şuşa Bəyannaməsinə görə, bu, Azərbaycandır. Deməli, Türkiyə Azərbaycanla bağlı üzərinə konkret öhdəliklər götürmüşdür və bütün variantlarda Bakıya dəstək verməlidir. Ankara dəfələrlə bu barədə bəyanat vermişdir. Son olaraq Prezident R.T.Ərdoğan Azərbaycanın fəaliyyətini təqdir etdiklərini və bütün məsələlərdə onu dəstəkləməkdə davam edəcəklərini bildirmişdir.

Maraqlı və əhəmiyyətlidir ki, Türkiyənin bu mövqeyinə ən çox hörmət və anlayışla yanaşan böyük dövlət Rusiyadır. Rəsmi Moskva Türkiyənin Cənubi Qafqazdakı fəallığına qarşı addım atmır və əksinə, getdikcə daha çox miqyasda Azərbaycan – Türkiyə tandemi ilə birgə fəaliyyət göstərir. Bu isə o deməkdir ki, bir neçə əsrdən sonra Cənubi Qafqazda geosiyasi oyun qaydaları dəyişir!

Vurğuladığımız kontekstdə “3+3” platformasının şansını artıran başqa bir dinamika diqqəti çəkir.

## MDB – TDT: Tarixi əməkdaşlıq şansı

Ola bilsin ki, bir çoxları üçün bu məsələ ikinci dərəcəlidir. Lakin iki özəlliyi mütləq nəzərə almaq lazımdır. Birincisi, MDB və TDT faktiki olaraq ortaq geosiyasi məkanda fəaliyyət göstərən regional təşkilatlardır. Buna görə də onların münasibətləri aydınlaşdırması istənilən halda qaçılmazdır. Mümkün deyildir ki, özlərində böyük potensialı birləşdirən iki güclü təşkilat uzun müddət bir-birini nəzərə almasın. İkincisi, MDB və TDT-yə üzv olan ölkələrin əhatə dairəsi, demək olar ki, eynidir. Burada fərqli olan Rusiya və Belarusun TDT üzvü olmamasıdır. Ermənistan ayrı mövzudur. MDB üzvləri: Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan, Ermənistan. Türkmənistan isə MDB-nin assosiativ üzvüdür və təşkilatın işində fəal iştirak edir. Bu ölknin prezidenti son Moskva sammitində də iştirak etmişdir. TDT üzvləri: Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan. Müşahidəçi dövlətlər: Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti.

Göründüyü kimi, MDB-nin 9 üzvündən 5- i türk dövlətidir və onların 4-ü TDT-yə daxildir, Türkmənistan da müşahidəçi statusunda təşkilata bağlıdır. Bundan başqa, MDB-nin iki əsas üzvü Rusiya və Belarusun TDT-nin bütün üzvləri ilə, ilk növbədə Azərbaycanla çox yaxşı münasibətləri vardır.

Bəs bu iki təşkilatın geniş bir geosiyasi məkanda təhlükəsizlik məsələsində ortaq davranmaları üçün hansısa maneə varmı? Heç bir maneə və əngəl yoxdur. Proqnozlaşdırmaq olar ki, MDB və TDT həmin istiqamətdə əməkdaşlıq imkanlarını müzakirə edəcəklər.

## “3+3”: Təhlükəsizliyin əsas platforması

Yuxarıda vurğulanan məqamlardan aydın olur ki, “3+3” platformasının İstanbul sammiti geniş bir geosiyasi məkanda ciddi yeniliklərə yol aça bilər. Bu format həm Cənubi Qafqazın təhlükəsizliyinin etibarlı təminat formuludur, həm də daha geniş məkanda MDB – TDT münasibətlərinin konkret praktiki müstəvidə təhlükəsizliklə bağlı əməkdaşlığını stimullaşdıra bilər. Bu yanaşma həm regiondaxili ziddiyyətlərin müsbət aspektdə aradan qaldırılması, həm də regiona kənardan ola biləcək neqativ təsirlərin neytrallaşdırılması baxımından əhəmiyyətlidir.

İstanbul görüşündə qəbul edilmiş bəyanatın əsas məzmunu da bu tezisin doğruluğuna əsas verir. Orada xüsusi olaraq “region dövlətlərinin öz aralarındakı problemləri dialoq yolu ilə həll etmələrinin vacibliyi” vurğulanmışdır. “Bəyanatda BMT Nizamnaməsində qeyd edilən prinsiplərə əsaslanaraq, regionda siyasi mübahisələrin sülh yolu ilə həlli, suverenliyə, ərazi bütövlüyünə, siyasi müstəqilliyə hörmət, sərhədlərin toxunulmazlığı və güc tətbiq etməmə kimi məsələlər qeyd edilmişdir”. Bununla yanaşı, “3+3” formatında iştirak edən dövlətlərin “regional iqtisadi əməkdaşlığın etimad üzərində qurulması, rifahın artırılması və sabitliyin təmin edilməsində oynadığı mühüm rola diqqət yetiriləcəyi” ayrıca vurğulanmışdır.

Aydındır ki, İstanbul görüşü “3+3”-ü faktiki olaraq yeni fəaliyyət səviyyəsinə yüksəldir. Orada alınan qərarların tezliklə həyata keçəcəyinə ümid bəsləmək doğru olmazdı. Hələlik çox məqamlar vardır ki, uyğunlaşdırmaq gərəkdir. Lakin açıq hiss olunur ki, bu formatda işirak edən dövlətlərin bir-birinə etimadı artmışdır. Buna görə də “3+3”-ün reallaşmasında üzvlər maraqlıdırlar. Burada İranın mövqeyinin necə olacağından bir sıra məqamların asılılığını inkar etmək olmaz. Bundan başqa, Rusiya – Türkiyə və Rusiya – Azərbaycan münasibətlərinin inkişaf dinamikasının təsiri ciddi olacaqdır.

Bunların fonunda Gürcüstanla Rusiyanın münasibətlərini normallaşdırması çox önəmlidir. Təbii ki, Azərbaycan – Ermənistan münasibətlərinin normallaşması da böyük əhəmiyyət kəsb edir.

Beləliklə, İstanbul görüşü “3+3” platformasına daxil olan ölkələrin ortaq fəaliyyətinin zəruriliyini bir daha gündəmə gətirmişdir. Bundan sonrakı gedişatın konkret məzmunu haqqında dəqiq fikir bildirmək çətindir. Lakin aydındır ki, region dövlətlərinin hər birinin “3+3”-ə ehtiyacı vardır. Bu baxımdan İstanbuldakı görüş yeni mərhələlərə yol aça bilər. Burada Ermənistanın müxtəlif bəhanələrlə Qərb faktoruna üstünlük vermək cəhdlərini edəcəyini də gözləmək lazımdır. Lakin bu istiqamətdə rəsmi İrəvanın manevr imkanlarının tükənməkdə olduğunu düşünürük. Çünki reallıq göstərir ki, Qərbin Cənubi Qafqazla bağlı apardığı siyasətin heç Ermənistana da faydası yoxdur. Əbədi düşmənçilik şəraitində heç bir halda bu regionda erməni dövləti mövcud ola bilməz. Çox güman ki, Ermənistan bu tarixi zərurəti dərk edəcəkdir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Paşinyanın “Real Ermənistan” nağılı

*Yaxud, dövlətsizlik cəzasına aparan yol*



**(əvvəli 1-ci səhifədə)**

Baş nazir 2018-ci və 2019-cu illərdə gələcək, ona aparan yollar haqqında düşünərkən, heç nəyin davamını görməyərək, dalana dirəndiyini bildirib. Onun 2018-ci ildə hakimiyyətə gəldiyi, 2019-cu ildə isə iqtidar kürsüsünü möhkəmləndirərək, sərsəm bəyanatlar verdiyi məlumdur. Söhbət “Qarabağ Ermənistandır və nöqtə” bəyanatından gedir. Belə nəticəyə gəlmək mümkündür ki, sözügedən bəyanat erməni hökumət rəhbərinin dalana dirəndiyi dövrün məhsuludur. Nəticə hasil olur ki, o, həmin vaxt gələcəklə bağlı heç bir ümidi olmadığından, psixoloji sarsıntı keçiribmiş. El misalında deyildiyi kimi, keçinin buynuzu qaşınanda, çobanın çomağına sürtünər.

Bəli, N.Paşinyan hakimiyyəti başda olmaqla, bütövlükdə Ermənistanı Azərbaycanın “dəmir yumruğ”u qəflət yuxusundan ayıltdı. Nəzərə alaq ki, bəzən psixoloji sarsıntılı adamı da, cəmiyyəti də müalicənin zor yolu var. Ancaq o halda ki, xəstəlik şizofreniya mərhələsinə daxil olmasın. Nikol bu gün gələcəyə optimist yanaşdığını dilə gətirirsə, belə qənaətə gəlmək olar ki, hazırda onun durumu daha pisdir. Çünki 2018 və 2019-cu illərdə Paşinyan nəyisə görməyə bilərdi, ancaq indi görməyə məhkumdur. Bunu dərk edirmi? Əlbəttə ki, yox!

N.Paşinyan deyir ki, hazırda vəziyyət bir qədər fərqli olsa da, çoxlu risk görsə də, onları aradan qaldırmaq və idarə etmək imkanları və gələcək yolun davamı var. Belə yanaşma, müəyyən mənada, müsbət sayıla bilər. Bəs nəyə görə Nikollu Ermənistanın vəziyyətini pis kimi qiymətləndiririk? Nə üçün hesab edirik ki, ölkə ilə bağlı nikbin olmaq pafosdur?

Diqqət yetirək, erməni baş nazir düşüncəsini əsaslandırmaq üçün bildirir: “Bu yolun sonu nədir və ya praktikada tətbiq etmək istədiyimiz bu yolun nəzəri məqsədi nədir? Biz bunu “Real Ermənistan” anlayışı adlandırırıq və bu, birbaşa dövlət anlayışı ilə bağlıdır. Mənası belədir: Ermənistan Respublikasının və bütövlükdə dövlətin çox praktik məqsədi var və onlar öz vətəndaşlarının rifahını təmin etmək üçün alətdir. Bu, daha böyük və daha iddialı dövlətin yaradılması üçün alət, baza və ya tramplin yox, beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində öz vətəndaşlarının rifahını təmin etmək üçün bir vasitədir”.

“Real Ermənistan” və “böyük və iddialı dövlət”. Deməli, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı ikinci deyimin təsiri altında verib. 44 günlük müharibədəki rüsvayçı məğlubiyyət isə Ermənistana real yanaşmaq zərurəti formalaşdırıb. Ancaq zərurətin dərkində problemlər var. Problemlər var ki, Paşinyan və komandası 2020-ci ildən bəri manipulyasiya etməklə, Azərbaycanla sülh məsələsində müxtəlif məqamları reallıq kimi təqdim etməklə məşğuldurlar. Nəhayət, Ermənistan Qarabağ avantürasından əl çəkibmi? Xeyr! Bu gün də “Qarabağ kartı” ölkənin anti-Azərbaycan təbliğatında mühüm vasitədirsə, deməli, Nikolun haqqında söz açdığı təfəkkür yoxdur. Xəstə erməni cəmiyyətini bir kənara qoyaq, rəsmi İrəvanın özü də “Real Ermənistan” məntiqindən uzaqdır.

N.Paşinyan “Real Ermənistan”ın hədəfinin əhalinin rifahı olduğunu deyir, amma bu rifah naminə ən optimal yolu seçmir, ərazi bütövlüyü və suverenlik iddialarına baş vurur. Onun yanaşması haradansa bu iki anlayış barədə eşitdiklərinin məcmusudur. Məsələ ondadır ki, əslində, Ermənistan heç zaman real dövlət olmayıb. 1830-cu ildən, hətta bir qədər əvvəldən başlayaraq, ermənilərin Cənubi Qafqaza köçü başlayıb. Bu, məqsədli şəkildə reallaşdırılmış proses olub.

İmperialist dairələr Türk dünyasını parçalamağın Cənubi Qafqaz seqmentini işə saldılar və erməniləri alət kimi istifadə edərək, niyyətlərini gerçəkləşdirdilər. 1849-cu ildə bölgədə erməni vilayəti yaradıldı. Sonradan, yəni 1918-ci ildə o vilayət dövlətə çevrildi. Yenə də reallıqdan uzaq bir şəkildə həmin dövlətə qədim Azərbaycan və türk yurdu olan İrəvan paytaxt verildi. Ancaq erməni qövmü əldə olunmuşlarla kifayətlənmədi, yeni torpaqlar əldə etməyə başladı. Söhbət keçmiş SSRİ zamanında ermənilərə peşkəş edilən Azərbaycan ərazilərindən gedir.

SSRİ-nin süqutu ilə N.Paşinyanın barəsində söz açdığı “Real Ermənistan”ın yaranması mümkünləşdi. Ancaq 1991-ci ilədək yaşananlar göstərirdi ki, bu, baş verməyəcək. Axı 1988-ci ildən erməni millətçilərinin Qarabağ avantürası vüsət aldı. 1991-ci ildən sonra isə avantüra özünü işğalçılıq mahiyyətinə köklədi. Deməli, “Real Ermənistan”ın yaranma şansı itirildi. Beləcə otuz ilə yaxın bir zaman da fövtə verildi.

Bəli, 2018-ci ildə N.Paşinyanın hakimiyyətə gəlməsi ilə də “Real Ermənistan”ın formalaşması üçün yaxşı fürsət yaranmışdı. Nəzərə alaq ki, Nikol iqtidara yiyələnməzdən əvvəl Qarabağı Ermənistanın çiyinlərindən asılmış ağır daş kimi göstərmiş və bildirmişdi ki, ölkə bu daşı üzərindən atmalıdır. Yəni, Paşinyan bu ideya ilə baş nazirliyə yüksəlmişdi. Ancaq o, kresloda möhkəmləndikdən sonra əvvəldə qeyd etdiyimiz “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirdi. Deməli, şans əldə çıxdı. Halbuki, heç bir müharibəsiz filansız torpaqları qaytara və Azərbaycanın o zamankı güzəştlərindən faydalana bilərdi...

Bir məqamı da vurğulayaq ki, hakimiyyətlər dövlət üçün cavabdehdir. Bu mənada, demək olmazdı ki, Paşinyan özündən əvvəlki erməni iqtidarının hərəkət və davranışları üçün tamamilə məsuliyyət daşımırdı. Daşıyırdı, ancaq Nikol Köçəryan – Sarkisyan tandeminin uzun müddət formalaşdırdığı erməni obrazının mənfi təsirlərini minimallaşdırmaq imkanında idi. Ancaq...

44 günlük müharibə ona görə baş verdi ki, Paşinyan hakimiyyəti “Real Ermənistan”ı deyil, qeyri-real Ermənistanı seçdi. Məsələnin qlobal tərəflərinə diqqət yetirmək, Nikolun Qərbin təhriki ilə müharibəyə başlamasından söz açmaq fikrindən uzağıq. Hər halda, Qərbin aləti olmağa, ümumən alətə çevrilməyə razılıq da reallıq hissini itirmək, avantüraya meydan verməkdir.

Bəli, Paşinyan hakimiyyəti 44 günlük müharibədən sonra da avantüraya getdisə, Qarabağdakı erməni silahlılarını ərazidən çəkmədisə, mina terroruna rəvac verdisə, deməli, yenə “Real Ermənistan” ideyasından uzaq durdu. Yaxşı, tutaq ki, Paşinyan özündən əvvəlki hakimiyyətlərin hərəkətlərinə görə cavabdeh deyildi, bəs onun özü? Axı 44 günlük müharibə də, lokal xarakterli antiterror tədbirləri də, onun ayağına yazılmalıdır.

Yəni Paşinyan hakimiyyətinin həm əvvəlki, həm də hazırda davam edən destruktivliyi “Real Ermənistan” ideyasından uzaq düşməsidir. Daha doğrusu, bu ideyanın beşiyindəcə boğulmasıdır. Rəsmi İrəvan indinin özündə də hərəkət və davranışlarında səmimi deyil və qeyri-səmimiliyinin müxtəlif aspektlərini vurğuladıq. Bəs bütün bunların cəzası olmamalıdır, ya yox? Əlbəttə ki, olmalıdır! Məsələ ondadır ki, Paşinyan hakimiyyəti hazırda tutduğu mövqe, hərəkət və davranışları ilə məhz həmin cəzaya doğru gedir. Cəzanın isə adı var – dövlətsiz ermənilər.

Bu boyda oyun çıxart, axırda da de ki, “Real Ermənistan”. Yoxdur elə bir dünya! Çünki “Real Ermənistan”da yaşamaq istəyən, bu təfəkkürdə olan, yalnız rifahı və asayişi düşünən erməni, böyük ölçüdə, yox dərəcəsindədir. Durumun günahkarları isə erməni hakimiyyəti adına iddialılardır. O cümlədən, Nikol Paşinyan.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bu il 1,3 milyard manat büdcə borcu qaytarılıb

**Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin 9 ayında dövlət büdcəsinin dövlət borcuna xidmət xərclərindən daxili dövlət borcu üzrə 170,3 milyon manatın (faiz borcu üzrə), xarici dövlət borcu üzrə 1 milyard 125,2 milyon manatın (əsas borc üzrə 850 milyon manat, faiz borcu üzrə 275,2 milyon manat), cəmi 1 milyard 295,5 milyon manatın ödənilməsi təmin edilib.**

2025-ci ildə Azərbaycanın dövlət büdcəsinin kəsirinin yuxarı həddi 3 milyard 51 milyon 600 min manat (2024-cü ildə nəzərdə tutulandan 302 milyon 700 min manat az) təşkil edəcək. Qeyd edək ki, Milli Məclisə göndərilən 2025-ci ilin dövlət büdcəsinə dair qanun layihəsində 2025-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 2 milyard manat (2024-cü ildə nəzərdə tutulandan 300 milyon manat çox), xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 3 milyard 500 milyon manat (1 milyard 800 milyon manat çox) nəzərdə tutulur. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 2 milyard manat (900 milyon manat çox) məbləğində müəyyənləşdirilib.

Onu da deyək ki, bu ilin 1 iyul tarixinə Azərbaycan Respublikasının dövlət borcu (daxili və xarici dövlət borcu) 25 milyard 686,1 milyon manat və ya 2024-cü il üzrə 121 milyard 342,5 milyon manat məbləğində proqnozlaşdırılan Ümumi Daxili Məhsulun (ÜDM) 21,2 faizini təşkil edib. Maliyyə Nazirliyinin "2024-cü ilin I yarımili üzrə dövlət borcuna dair statistik bülleten"inə əsasən, ümumi dövlət borcunun 9 milyard 114,2 milyon manatı (5 milyard 361,3 milyon dollar) və ya 35,5 faizi, xarici dövlət borcunun 16 milyard 571,9 milyon manatı və ya 64,5 faizi daxili dövlət borcunun payına düşüb.

Xarici dövlət zəmanətli borcun 4 milyard 329,7 milyon dollarını və ya 76,7 faizini (7 milyard 361milyon manatı) "Cənub Qaz Dəhlizi" QSC-nin öhdəlikləri üzrə verilmiş dövlət zəmanəti təşkil edir. Dövlət zəmanətli borc portfelinin valyuta tərkibi belə olub: ABŞ dolları– 62,6 faiz, avro – 19,4 faiz, manat – 12,4 faiz, yapon yeni – 3,6 faiz, digər valyutalar – 2 faiz. Dövlət zəmanətli borcun 63,4 faizi 5 ilə qədər, 24,3 faizi 5 ildən 10 ilə qədər, 12,3 faizi isə 10 ildən yuxarı olan müddətlərdə kreditorlara qaytarılmalıdır.

Bu kreditlərin 29,8 faizi müxtəlif investorların, 5,4 faizi Dünya Bankının, 9,4 faizi Asiya İnkişaf Bankının, 1,2 faizi İslam İnkişaf Bankının, 5,7 faizi Avropa Yenidənqurma və İnkişaf Bankının, 3,6 faizi Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin, 8 faizi Asiya İnfrastruktur İnvestisiya Bankının, 15,9 faizi daxili kreditorların, 21 faizi isə digər kreditorların payına düşüb.

Bu ilin 1 iyul tarixinə xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 99,9 milyon dollar və ya 17 faiz azalıb. Bunun da əsas səbəbi imzalanmış kredit sazişləri çərçivəsində 2024-cü ilin ilk 6 ayı ərzində xarici dövlət borcu üzrə vaxtı çatmış əsas borc ödənişlərinin, o cümlədən beynəlxalq maliyyə bazarlarında 2014-cü ildə yerləşdirilmiş istiqrazlar (avrobond) üzrə 900 milyon dollar məbləğində ödənişlərin həyata keçirilməsi olub. 2024-cü ilin 1 iyul tarixinə xarici dövlət borcunun ÜDM-ə nisbəti ilin əvvəli ilə müqayisədə 1,4 faiz bəndi azalıb.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

Xarici dövlət borcunun azalmasını dövlət başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatlar, kompleks tədbirlər nəticəsində yaranan, eyni zamanda, getdikcə möhkəmlənən makroiqtisadi və maliyyə sabitliyi şərtləndirib. Bu fikri konkret rəqəmlərlə ifadə etsək, deyə bilərik ki, 2024-cü ilin yanvar–sentyabr aylarında ölkədə 92829,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz çox ümumi daxili (ÜDM) məhsul istehsal olunub. İqtisadiyyatın neft–qaz sektorunda əlavə dəyər 0,9 faiz, qeyri neft–qaz sektorunda isə 7,1 faiz artıb.

ÜDM istehsalının 37,1 faizi sənaye, 9,6 faizi ticarət, 7 faizi nəqliyyat, 6,4 faizi kənd təsərrüfatı, 6,3 faizi tikinti, 23,4 faizi digər sahələrinin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,2 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 9102,9 manata bərabər olub.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmasına xüsusi yer verilib.

Bundan başqa, adıçəkilən sənəddə şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, eləcə də dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanmanın təşkil edilməsi kimi mühüm əhəmiyyətli istiqamətlər vurğulanıb. Milli Prioritetlərdə bütün bunların reallaşdırılması üçün xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması məqsədilə Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payının tədricən azaldılması, məcmu borcun makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinin gerçəkləşdirilməsi zəruriliyi bildirilib.

Milli Prioritetlərdə olduğu kimi, digər sənədlərdə də bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi–dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bütün bunlar nəzərə alınaraq ölkədə son illərdə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.



Hazırda da daxili və xarici borcların qarşılanmasına prioritet istiqamət kimi yanaşılır. Məsələn, kapital və sığorta bazarının inkişafının sürətləndirilməsi, milli bank sektorunun dayanıqlığının təmin olunması, ona olan etimadın daha da yüksəlməsi, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payının artırılması və sahibkarlıq fəaliyyətinin inkişafının diqqətdə saxlanılması kimi layihələrə xüsusi önəm verilir.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Yeri gəlmişkən, 2022–2025-ci illər üzrə yenilənən strategiyada ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, habelə tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyinin qorunması, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlib.

Onu da qeyd edim ki, yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

# Qarabağın bərpasına 9 ayda 3 milyard manat xərclənib

**Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin yanvar–sentyabr aylarında Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına 3 milyard 137,6 milyon manat vəsait yönəldib. Bu, 2024-cü ilin dövlət büdcəsində sözügedən məqsədlə nəzərdə tutulan 4 milyard 855,8 milyon manat vəsaitin 64,6 faizi deməkdir. Həmin vəsait sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədləri əsasında istifadə olunub.**



Qeyd edək ki, İkinci Qarabağ müharibəsi başa çatandan bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edib. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Keçmiş məcburi köçkünlərin məskunlaşdırılması istiqamətində geniş miqyaslı layihələrin gerçəkləşdirilməsi nəticəsində 8 mindən çox insan Qarabağ və Şərqi Zəngəzura, dogma yurd yerlərinə qovuşub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri sürətlə həyata keçirilib, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələr sırasında 70 kilometr uzunluğunda 45 tunel və 450 körpünün çətin relyef şəraitində inşası nəzərdə tutulub. Dəmir yolları, 2 beynəlxalq hava limanı istifadəyə verilib. Enerji potensialının gücləndirilməsi diqqətdə saxlanılıb və 3 il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilib.

# Dünya Bankının Azərbaycanda iqtisadi artım proqnozu

**Dünya Bankı Avropa və Mərkəzi Asiya regionunun iqtisadi perspektivlərinə dair hesabatında 2024-cü ildə Azərbaycanda iqtisadi artım üzrə proqnozu yaxşılaşdırıb.**




Bank iyun ayı ilə müqayisədə respublikamızda real ÜDM-in artımını 0,9 faiz artıraraq 3,2 faizə, 2025-ci il üçün 0,3 faiz artıraraq 2,7 faizə çatdırıb, 2026-cı il üzrə isə proqnozu dəyişməyərək yenidən 2,4 faiz müəyyənləşdirib.

Bank hesabatında bu il dövlət investisiyalarının ölkənin iqtisadi artıma böyük təsir edəcəyi, sərmayələrin 2023-cü ilə nisbətən əhəmiyyətli dərəcədə artacağı da vurğulanıb. Eyni zamanda, bu ölkədə iqtisadi artımın 2023-cü ildəki 8,3faizdən bu il 5,5 faizə enəcəyi bildirilib.

# Nəbatat bağı COP29-a töhfə olacaq



**Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin məlumatına görə, Mərkəzi Nəbatat Bağının oktyabrın sonunadək istifadəyə veriləcəyi nəzərdə tutulur.**

Prezident İlham Əliyevin sərəncamı ilə ötən ildən 46 hektar sahəsi olan Mərkəzi Nəbatat Bağında əsaslı təmir–yenidənqurma işlərinə başlanılıb. Bağın 1937-ci ildə tikilmiş inzibati binası əsaslı təmir edilib, parkın ərazisində yerləşən Botanika İnstitutunun inzibati binası isə söküləræk yenidən tikilib. Parkda müasir tipli oranjereyaya inşa edilib, oranjereya isitmə, soyutma və nəmləndirmə avadanlıqları ilə təchiz olunub. Ərazidə göl kompleksi, dünyanın müxtəlif nadir bitki növləri üçün istixanalar tikilib. Yerdən 3 metr hündürlüyündə əlillər üçün körpü və hər iki qiriş qapısını birləşdirən piyada yolu salınıb.

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin məlumatına görə, Mərkəzi Nəbatat Bağının bu ayın sonunadək istifadəyə veriləcəyi nəzərdə tutulub.




# İqlim təhlükəsizliyi memorandumu

**Bakıda COP29 öncəsi görüşlər çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İqlim Katibliyi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.**

Bu barədə COP29-un "X" hesabında məlumat verilib. Bildirilib ki, memorandumda həm COP29 məkanında, həm də onun hüdudlarından kənarda təhlükəsizlik sahəsində əməkdaşlığın prinsipləri və strukturu əks olunub.

# Alimlər üzüm toxumundan yağ alıblar

**Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda üzümün emalı zamanı yaranan tullantılardan (üzüm toxumu) soyuq sıxma üsulu ilə yağ istehsalına başlanıb,**



İstitutun direktoru Vüqar Səlimov mediaya açıqlamasında soyuq sıxma üsulu yağın keyfiyyətini artırır, arzuolunmaz maddələrin yaranma riskini aradan qaldırır. Bu yağdan kosmetik vasitələrin istehsalında, tibbdə, yeyinti sanayesində geniş istifadə edilir. V. Səlimov qeyd edib ki, üzümçülük və şərabçılıq sahəsində emal zamanı böyük həcmdə (təxminən, 1000 ton üzümə 300 ton) toxum, qabıq, daraq tullantıları yaranır. Ona görə də tullantısız texnologiyanın perspektivi üzümçülük və şərabçılıq sahəsində çox yüksəkdir. İnstitutda üzümün emalı zamanı yaranan qalıqlardan bioloji aktiv maddələrin alınması istiqamətində də elmi-tədqiqat işləri həyata keçirilir.

Onun sözlərinə görə, institutda həm də ölkənin milli şərab brendləri üçün texniki üzüm sortlarının inkişaf etdirilməsi istiqamətində iş aparılır: "Texniki üzüm sortları müasir üsullarla qiymətləndirilir, onlardan texnoloji istifadə istiqamətləri müəyyən olunur.

Azərbaycanda "Bayanşirə", "Mələyi", "Mədrəsə" , "Xindoqnı", "Şirvanşahı" kimi nadir texniki üzüm sortları digər ölkələrdə yetişdirilən bu cür məhsullarla müqayisədə daha məhsuldardır.

Direktor vurğulayıb ki, bəzən sahibkarlar elə düşünürlər ki, yerli sortlar az məhsuldardır, ona görə də xarici sortları ölkəyə gətirirlər. Lakin xarici sortların bir çoxu da yerli torpaq-iqlim şəraitinə uyğunlaşmır və məhsul vermir.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# “Yaşıl” maliyyə Bakı müzakirələrində aparıcı hədəf olacaq

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil Brukinq İnstitutunun Qlobal İqtisadiyyat və İnkişaf Proqramının onlayn konfransındakı çıxışında noyabrda Bakıda keçiriləcək COP29-un Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirəcəyinə və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə böyük töhfə verəcəyinə əminliyini diqqətə çatdırıb.**



O, Azərbaycan mediasına müsahibəsində İqlim Dəyişikliyi Konfransının (COP) qlobal dünya əhəmiyyətli tədbir olduğunu bildirərək, iqlim dəyişmələrinin ətraf mühitə, iqtisadiyyata, insanların sağlamlığı və təhlükəsizliyinə ciddi təsir göstərdiyini də vurğulayıb: “COP ölkələrə bir araya gəlməyə, iqlim dəyişmələri problemlərini müzakirə etməyə, istixana qazlarının həcminin azaldılması üçün birgə hərəkətlər barədə tədbir və qərarları qiymətləndirməyə, yenilərini qəbul etməyə əlverişli şərait yaradır. Bu isə deməyə əsas verir ki, COP əsas beynəlxalq ekoloji sazişlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının və Paris İqlim Sazişinin həyata keçirilməsi üzrə danışıq prosesinin ali orqanıdır.

Hazırda COP həm də ona görə mühüm önəm daşıyır ki, dövlət başçıları, nazirlər, digər dövlət xadimləri, eləcə də biznes, vətəndaş cəmiyyəti, media və gənclər daxil olmaqla iqlim gündəliyinin geniş aktorlar dairəsini bir araya gətirir. İqlim probleminin həlli məqsədilə məhz belə sahələrarası yanaşmaya ciddi zərurət duyulur”.

Saymon Stilin sözlərinə görə, COP29 qlobal iqtisadiyyatın və milyardlarla insanın həyatının iqlim dəyişikliyinin fəlakətli təsirlərindən xilas edilməsində iqlim maliyyəsinin oynadığı aparıcı rolu qəbul edən tədbirlər konfransı olmalıdır. Yeni maliyyə hədəfinin konkret parametrləri hələ müəyyən edilməsə də, onun əsasını dövlət maliyyələşdirməsinin təşkil edəcəyi gözlənilir. Eyni zamanda, vəsaitlərin böyük hissəsi daha çox ehtiyacı olan ölkələr üçün əvəzsiz və ya güzəştli əsaslarla verilməlidir.

İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi daha sonra qeyd edib ki, COP29-da müzakirənin əsas aspekti iqlim maliyyələşdirilməsinin effektivliyinin artırılması olacaq. Maliyyə bazarlarında özəl investisiyaların cəlb edilməsi və “yaşıl” investisiyalar üçün stimulun yaradılması mexanizmlərinin nəzərdən keçirilməsi də diqqətdə saxlanılacaq. Eyni zamanda ümid edirəm ki, İqlim Maliyyəsi Fonduna hansı dövlətin nə qədər ödəyəcəyi ilə bağlı əsas məsələ Bakıda həll olunacaq və konfransda bu maliyyə qurumuna vəsaitlərin toplanılması məqsədilə işlək mexanizmlər yaradılacaq. Bütün bunlarda bərabər, sessiyada iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərinin maliyyələşdirilməsini operativ surətdə artırmaq və beynəlxalq karbon bazarlarının ümumi rifaha xidmət etməsini gerçəkləşdirmək istiqamətində hərtərəfli müzakirələr aparılacaq.

Çərçivə Konvensiyasının icraçı katibi vurğulayıb ki, COP28-də nail olunan irəliləyişin inkişaf etdirilməsi, bərpa olunan enerji mənbələrinin 3 dəfə, enerji səmərəliliyinin 2 dəfə artırılması, adaptasiyanın sürətləndirilməsi və qalıq yanacaqdan mərhələli şəkildə imtina edilməsi ilə bağlı BƏƏ Konsensusunda təsbit edilmiş vədləri yerinə yetirmək üçün yeni milli iqlim strategiyaları maliyyələşdirilməlidir. Həmçinin əsas diqqət İtki və Zərər Fondunun tammiqyaslı fəaliyyətini təmin etməyə, vəsait daha çox ehtiyacı olanlara yönəldilməlidir: “Biz həm ölkələr arasında, həm də onların daxilində ciddi parçalanmaların şahidi oluruq. Belə anlarda özümüzə qapanmaq istəyi yaranır. Bu, başqasının bostanında baş verənlərin mənim problemim və qayğım olmadığına dair reallıqdan uzaq bir inancdır və iqlim dəyişikliyi ilə qlobal mübarizədə uduzmağın əsasıdır”.

Saymon Stilin fikrincə, Beynəlxalq İnkişaf Bankının iri səhmdarları olan G20 ölkələri iqlim maliyyəsi üzrə məqsədlərə çatmaq üçün ümumdünya maliyyə sistemində geniş islahatlara nail olmalı, yeni və innovativ maliyyə mənbələrin tapılması istiqamətində çalışmalı, eləcə də daha böyük məbləğdə maliyyə vəsaitinin ayrılmasını gerçəkləşdirməli, inkişaf etməkdə olan ölkələrə dəstək verməlidir. O xatırladıb ki, Braziliyanın rəhbərlik etdiyi və G20 ölkələrinin ekologiya və maliyyə nazirlərinin birgə keçirdiyi görüş bu sahədə müsbət nəticələrə nail olunmasını təşviq etməlidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının apardığı müzakirələrdən kənar keçirilən görüşlərdə iqlim maliyyəsi üzrə irəliləyişə nail olunması bu sahə ilə əlaqədar beynəlxalq qurumların da öhdəliklərini qismən azaltmağa və ümumi fəaliyyətdə irəliləyişə nail olmağa kömək edir.

Bu sahədə uğursuzluqla üzləşilmə isə Paris İqlim Razılaşmasının əsas müddəalarını böyük zərbə ilə üz-üzə qoyur. Ənənəvi illik müzakirələr zamanı əldə edilən nəticələr iqlim dəyişikliyi ilə mübarizədə daha qətiyyətli addımların təminatına imkan verməklə yanaşı, həm də dünya iqtisadiyyatını və cəmiyyətləri daha da möhkəmləndirir.

S.Stil, eyni zamanda, Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfrasının 29-cu sessiyasında iştirakçı ölkələrin beynəlxalq iqlim maliyyəsi üzrə yekun razılığı əldə etməsinin vacibliyini də vurğulayıb: “Bu baxımdan COP29 dayanıqlı bir beynəlxalq tədbirə çevrilməli, eləcə də bu konfrans çərçivəsində iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi, ilk növbədə, bəşəriyyətin, eləcə də dünya iqtisadiyyatının ekologiyanın zərərli təsirlərindən xilas üçün təsiredici addımlar atılmalıdır”.

Qeyd edək ki, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev çıxışlarının birində yeni maliyyə mexanizminin– İqlim Maliyyəsi Fondunun yaradılmasında əsas məqsədin iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək olduğunu bildirib. O, bunun üçün qrant əsaslı 1 milyard dollar vəsait toplanılmasının zəruriliyini xatırladıb.

COP29-un baş danışıqçısı onu da diqqətə çatdırıb ki, qrant əsaslı töhfələri lazım bilmələrinin səbəbi kiçik ada dövlətləridir: “Kiçik ada dövlətlərinin şikayətlərindən biri o idi ki, təbii fəlakət baş verəndə onlar beynəlxalq təşkilatlara müraciət etsələr də bu, nəticəsiz qalır. Ona görə də Azərbaycan alternativ maliyyə qurumunun yaradılması təşəbbüsünü irəli sürdü və bu, müsbət dəyərləndirildi”.

Y.Rəfiyevin sözlərinə görə, ayrılacaq vəsaitin 50 faizi iqlim fəaliyyətinə, “yaşıl” enerji texnologiyalarına yönəldiləcək. İnvestisiyalardan gələn gəlirlərin 20 faizi isə “2R2F” adlandırılan maliyyə mexanizmi vasitəsilə inkişaf etməkdə olan ölkələrə istiqamətləndiriləcək. İqlim Maliyyəsi Fondu kiçik və orta bərpaolunan enerji istehsalçılarına da dəstək göstərəcək.

“Biz hamımız o fikridəyik ki, indi hərəkətə keçməliyik. İqlim üzrə maliyyənin hazırkı miqyası kifayət qədər deyil. 1,5 ºC-yə gedən yol Bakıdan keçir. Bu, asan həll yolu deyil. Biz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, qlobal Cənub və qlobal Şimal arasında, ada və qitə ölkələri arasında inam yaratmalıyıq. COP29-u hər kəsin səsinin eşidildiyini hiss edəcəyi əhatəli mühit olmasını təmin etməyəkdə qərarlıyıq”, – deyə Y.Rəfiyev bildirib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev bu il iyulun 13-də ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidini qəbul edərkən də bu barədə fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı ölkəmizin “yaşıl” keçid siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışaraq inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu deyib və “Commonwealth” təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını bildirib.

COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev də ayrı-ayrı çıxışlarında iqlimlə bağlı bütün səylərin dəstəklənməsində maliyyənin mühüm rol oynadığını vurğulayıb. O, bu sahədə irəliləyişlərin əldə olduğunu qeyd edərək, eyni zamanda, qlobal maliyyə institutlarına məqsəd və fəaliyyətlərində daha da irəliləmək barədə çağırışlarını diqqətə çatdırıb.

Sonda xatırladaq ki, Azərbaycanın COP29-da sədrliyi ən mühüm mövzuya – iqlimin maliyyələşdirilməsinə həsr olunub. İtki və Zərərlərin Ödənilməsi Beynəlxalq Fondu tərəfindən sənaye güclərinin inkişaf etməkdə olan ölkələrə yardım göstərməsinə imkan yaratmaq üçün kompensasiya mexanizmi təqdim edilib. Fond indiyədək cəmi 429 milyon ABŞ dolları toplayıb ki, bu da həmin ölkələrə dəymiş zərərdən xeyli az olub. Buna görə də ekspertlər tərəfindən Bakıda keçiriləcək COP29-a iqlim maliyyəsinin ədalətli bölüşdürülməsi platforması kimi yanaşılıb.

# Təmiz enerji karbonla mübarizə silahıdır



**Respublikamızın bərpaolunan enerji potensialı əsasında istehsal edilən “yaşıl” sərvətin tezliklə ixracını həyata keçirəcəyini bildirən iqtisadçı-ekspert Samir Heydərov qeyd edib ki, ölkəmizin enerji strategiyasında artıq yeni era başlanıb, bu mərhələnin əvvəlində Azərbaycanın COP29-a evsahibliyi hüququ qazanması isə qarşıya qoyulan vəzifənin məsuliyyətini daha da artırıb –2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının respublikamızda 30 faizə çatdırılması əminliyi yaradıb.**

Samir Heydərov vurğulayıb ki, belə bir tədbir Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizədə həyata keçirdiyi layihələrin beynəlxalq aləmdə tanınmağına və bu sahənin sürətli inkişafına yeni investisiyaların cəlb olunmasına əlverişli imkan yaradır. Respublikamız neft–qaz ölkəsi olmaqla yanaşı, iqlim dəyişiklikləri ilə bağlı çağırışlara da yüksək səviyyədə reaksiya verir. Belə ki, 2030-cu ilə qədər istilik effekti yaradan qazların həcminin ölkəmizdə 35 faizə qədər azaldılması nəzərdə tutulur. O cümlədən, sürətlə bərpaolunan enerji sahələri yaradılır və 2030-cu ilə qədər istehsal edilən elektrik enerjisinin 30 faizinin “yaşıl” enerji üzərinə keçirilməsi ilə bağlı könüllü öhdəlik diqqətdə saxlanılır. Bu məqsədlə günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələr davamlı olaraq reallaşdırılır. Ölkəmizdə “yaşıl” enerji sahələrinin genişləndirilməsi ilə əlaqədar təcrübəsi olan dünyanın aparıcı şirkətləri ilə sazişlər imzalanır.

Bu gün karbon neytrallığına nail olmağın zəruriliyinə artıq heç kimin şübhə ilə yanaşmadığını vurğulayan ekspert, eyni zamanda, müxtəlif tipli iqtisadiyyata malik ölkələrə iqlim fəlakətinin qarşısının alınması üçün nəyi və necə etmək lazım olduğu ilə bağlı razılığa gəlməyin çətinliyi faktına da diqqət çəkdi. Bildirdi ki, Ümumdünya BMT Assosiasiyaları Federasiyasının vitse-prezidenti Aleksey Borisovun fikrincə, iki qütbün toqquşması göz önündədir. Birinci tərəf, ilk növbədə, Avropa İttifaqı ölkələri və ABŞ 2050-ci ilə qədər sürətləndirilmiş enerji keçidinə və karbon neytrallığına nail olmaqda israrlıdırlar. Onlar istixana qazları emissiyalarının karbohidrogenlərin hasilatı və istifadəsi sahəsində “keçid” layihələri hesabına azaldılmasına nail olmağı yolverilməz hesab edirlər.

İkinci qütbdə dayanan dövlətlər–inkişaf etməkdə olan ölkələr isə 2060–2070-ci illərə qədər karbon neytrallığına nail olmaq şərtilə iqtisadiyyatın inkişafının xüsusiyyətini nəzərə alan daha yumşaq keçidin tərəfdarıdırlar. Çünki bu yol inkişafda olan ölkələrə enerji və resurs səmərəliliyi istiqamətdə hərəkət edərək iqtisadiyyatı yenidən qurmağa imkan verəcək, eləcə də düşünülmədən sürətləndirilən enerji keçidini şərtləndirəcək sosial-iqtisadi risklərin səviyyəsini azaldacaq.

Göründüyü kimi, neft-qaz ölkəsi olan Azərbaycan “yaşıl” enerji növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu məsələdə Prezident İlham Əliyevin bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

# 28 min əcnəbi COP29 qeydiyyatından keçib



**COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova media nümayəndələrinə açıqlamasında indiyədək 28 mindən çox iştirakçının iqlim konfransında iştirak üçün qeydiyyatdan keçdiyini bildirib.**

Onun sözlərinə görə, qeydiyyat prosesi davam edir və günbəgün iştirak göstəriciləri artır: “COP29-da iştirak etmək üçün, adətən, əksər nümayəndə heyətləri tədbirə daha yaxın tarixlərdə qeydiyyat üçün müraciət etdikləri nəzərə alınmaqla bu rəqəmlərdə də müvafiq artım müşahidə ediləcək”.

# Konfrans günlərində paytaxt yolları açıq olacaq

**COP29 Nəqliyyat Departamentinin rəhbəri Orxan Mahmudlu COP29 müddətində şəhərin əsas küçə və prospektlərində əsaslı qadağaların qoyulmasının nəzərdə tutulmadığını bildirib.**



Onun sözlərinə görə, noyabrın 11–12–13-də Liderlər Sammitinin keçiriləcəyi dövrdə müəyyən tənzimləmələr planlaşdırılır: “Ölkəyə səfər edəcək dövlət və hökumət başçılarının gəlişi ilə əlaqədar hava limanından şəhərə, şəhərdən stadion istiqamətində müxtəlif tənzimlənmələrin aparılması nəzərdə tutulur. Bu tənzimləmələr aparılarkən çətinliklər və sıxlıqlar yarana bilər deyə, şəhərin nəqliyyat tənzimlənməsi planını yaratmışıq. Belə ki, dövlət və hökumət başçılarını daşıyan kortejlərin keçəcəyi yollarda insanlar alternativ yollardan istifadə etsin deyə, müəyyən alternativlər müəyyən olunub. Bu istiqamətlər hava limanından şəhərə, əksi və ya şəhərin digər istiqamətidir. Bununla bağlı ictimaiyyətə məlumat veriləcək".

O.Mahmudlu bildirib ki, həmin günlərdə nəqliyyatın tənzimlənəcəyi planlaşdırılan istiqamətlərə Neftçilər prospekti, Yusif Səfərov küçəsi, Heydər Əliyev prospekti, Zərifə Əliyeva küçəsi və digər yollar daxildir.




*

COP29-un baş icraçı direktoru Elnur Soltanov isə bildirib ki, konfrans müddətində şəhər sakinlərinin evdən çıxması ilə bağlı səlahiyyətli qurumlar tərəfindən hər hansı məhdudiyyət və qadağaların və ya SMS icazələrin tətbiqi nəzərdə tutulmur.

E.Soltanov qeyd edib ki, bu barədə məlumat dezinformasiyadır. Baş icraçı direktor ictimaiyyəti bu kimi dezinformasiyalara inanmamağa və yalnız qurumlar tərəfindən verilmiş rəsmi məlumatları əsas götürməyə çağırıb.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*

# “Bəbir” Xüsusi Təyinatlı Dəstənin komandiri, əfsanəvi “Rembo”

**Dörd il öncə bu gün Zaqatalanın Üçüncü Tala kəndində izdiham yaşanırdı. Bütün kənd əhli 44 günlük savaşda yüksək məqama ucalan igid şəhidini qarşılayırdı. Qarşıda polis, ardınca təcili yardım, daha arxada hərbçilərin əyləşdiyi maşınları görən ananın fəryadı göyə yüksəlirdi, həyat yoldaşının dizləri bükülürdü. Şəhidin nəşi döyüş yoldaşlarının çiynində ailə ilə vidalaşmağa Azərbaycan bayrağına bükülmüş tabutda gəlirdi. İzdiham kənd qəbiristanlığına axışırdı. Əklillər, hərbçinin böyüdülüb çərçivəyə salınmış fotoları, təltifləri tabutun önündə şəhidi son mənzilədək müşayiət edirdi.**

Doğulduğu kənddə yaylım atəşləri altında dəfn edilən igid ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülən, Daxili Qoşunların “Bəbir” adlı Xüsusi Təyinatlı Dəstəsinin komandiri, mayor Şixamir Qaflanov idi.

**Xatırlatma**

Şixamir Qaflanov 1986-cı ildə Zaqatala rayonunun Dombabinə (hazırda Üçüncü Tala adlanır) kəndində anadan olmuşdur. O, Oruc və Mominət Qaflanovların dörd övladından sonuncu idi. Ailənin böyük oğlu Asif Qaflanov 1991–1994-cü illərdə Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Digəri–Qurban Qaflanov isə Daxili Qoşunların “Bəbir” adlı Xüsusi Təyinatlı Dəstəsində xidmət edir.

Şixamir Qaflanov 1993-cü ildə Zaqatala rayonunda Dombabinə kənd tam orta məktəbində təhsil almış və 2004-cü ildə oradan məzun olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 2005-ci ilin yanvar ayından 2006-cı ilin iyul ayına qədər Daxili Qoşunların Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsində “Pələng” Xüsusi Təyinatlı Dəstəsinin sıralarında qulluq etmişdir. 2006-cı ilin iyul ayında ordu sıralarından tərxis olunur və 2007-ci ilin aprel ayında Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (MAHHXQ) olaraq xidmətə başlayır.

Şıxamir Qaflanovun arzusu Daxili Qoşunların zabiti olmaq idi. Buna görə də 2008-ci il ildə Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə daxil olur. 2010-cu ildə təhsilini başa vurub leytenant hərbi rütbəsi alır və Zaqatalada “N” saylı hərbi hissədə xidmətinə davam edir. Bilik və bacarıqlarını artırmaq və təkmilləşdirmək məqsədilə Türkiyədə keçirilən təlimlərdə iştirak etmək istəyi gerçəkləşir. O, 2012-ci ilin oktyabr ayından dekabra qədər İzmirdə Jandarma Komandan Məktəbi və Təlim Mərkəzi Komandanlığında “Zabit Komando” kurslarında təhsil alır. 2019-cu ildə qardaş ölkədə təşkil edilən təlimlərə 2-ci dəfə qatılır. Fevral ayından iyun ayına qədər İzmirdə Jandarma Komandan Məktəbi və Təlim Mərkəzi Komandanlığında “Jandarma Komando” kurslarında təlim keçir.

## İkinci Qarabağ müharibəsi başlayır

2020-ci il sentyabrın 27-də Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının “Bəbir” Xüsusi Təyinatlı Dəstəsinin komandiri Şixamir Qaflanov 40 nəfərdən ibarət şəxsi heyətlə Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsində savaşa başlayır. Dəstənin birinci döyüşü Füzuli rayonunun Qaraxanbəyli istiqamətində olur. Səhər saatlarında başlanan döyüşlərin nəticəsi olaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında mövcud olan təmas xətti yarılır və Qaraxanbəyli 27 il davam edən işğaldan azad edilir. Daha sonra dəstə Cəbrayıl rayonunun Lələtəpə istiqamətindən başlayaraq Arazboyu əməliyyatlara qatılır. Və Cəbrayıl istiqamətində olan əlverişli mövqelər, həmçinin yaşayış məntəqələri azadlığa qovuşur.

## Cəbrayıl, Füzuli, Hadrut... və Xocavənddə son döyüş

“Bəbir” adlanan dəstənin üzvləri Qaraxanbəyli kəndindən sonra Lələtəpə istiqamətindən başlayaraq Arazboyu əməliyyatlarda iştirak edirlər. Ümumilikdə Cəbrayılın, Füzulinin, Hadrutun işğaldan azad edilməsi uğrunda 23 döyüşə qatılaraq Ermənistan Respublikasının Müdafiə Ordusunun canlı qüvvəsini məhv edirlər.



Kəndlər, rayonlar işğaldan azad edildikcə onların üzü gülür, Şuşaya bayraq sancacaqları günü səbirsizliklə gözləyirlər. O günün yaxında olacağına qəlbən inanırlar. Dövlət başçısının işğaldan azad edilən rayonlarla bağlı xalqa verdiyi xəbərlər onların döyüş ruhunu, əzmini birə-beş artırır.

Şixamir oktyabrın 19-da səhər tezdən atasına zəng edir. Narahat olmamağı, hər şeyin yaxşı olacağına inanmasını söyləyir. Deyir ki, biz yaxşıyıq, özünüzə fikir verin və bizdən nigaran qalmayın, irəliləyirik.

Onun döyüş şücaətini görüb “Əfsanəvi Rembo” adlandırırlar. Şixamirin son döyüşü oktyabrın 19-da Xocavənd rayonu istiqamətində olub. Həmin gün döyüş tapşırığına əsasən, Laçın dəhlizinə və Füzuli rayonuna çıxan bəlli strateji mövqe alınmalı idi. Döyüşdən öncə o tabeliyində olanlara lazımı tövsiyələrini verir, ehtiyatlı olmağı tapşırır. O vaxtadək “Bəbir” Xüsusi Təyinatlı Dəstə bir nəfər də şəhid verməmişdi. Döyüş zamanı düşmən snayperinin açdığı atəş nəticəsində baş nahiyəsindən ağır yaralanan Şixamir Qaflanovun özü dəstənin ilk şəhidi olur. Həmin döyüşlərdə komandirdən başqa baş çavuşlar Sahib Yaşar oğlu Məmmədov və Surxay Zülfi oğlu Mehdiyev, həmçinin çavuş Sənan Muxtar oğlu Ələsgərzadə də həlak olur. Xəbər ailəyə çatanda hamı yerində donub qalır. Səhər saatlarında səsini eşitdikləri oğlunun axşama doğru şəhid olduğu deyilir.

Dəfn mərasimində çıxışlardan sonra ona təqdim edilən Azərbaycan bayrağını bağrına basan atası Oruc Qaflanov deyir: “Oğulu el-obanı qorumaq üçün böyüdürlər. Torpaqlarımızı onlar azad etməyib, kim edəcəkdi? Təki Vətən sağ olsun. Oğul itkisinə nə qədər sarsılsam da, belə qəhrəman övlad böyütdüyümə görə alnıaçıq, başı dik gəzəcəyəm”. Təəssüf ki, qəhrəmanımızın atası oğlu ilə uzun müddət fəxr edə bilmir, Şixamirdən sonra vəfat edir.

## İrsi və xatirəsi

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə dövlət başçısının 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Şixamir Qaflanova ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. O, həmçinin “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və digər medallarla təltif edilib.

Şixamir Qaflanovun şəxsi əşyaları Milli Azərbaycan Tarixi Muzeyinin İkinci Qarabağ müharibəsi fonduna təhvil verilib. Dövlətimiz şəhidlərin ailə üzvlərinin sosial müdafiəsinə və digər problemlərinə həssaslıqla yanaşır. Vətən qurbanlarının irsi qorunur, gələcək nəsillərin onları tanıması üçün lazımi tədbirlər görülür. “Əfsanəvi Rembo”nun xatirəsi də anılanlar sırasındadır.

**Şixamirin ailəsinin mənzil şəraiti yaxşılaşdırılıb. Həyat yoldaşı Solmaz şəhid ailəsi kimi mənzillə təmin olunub.**

**2020-ci ildə Şixamir Qaflanovun Zaqatala rayonunun Üçüncü Tala kəndində yaşadığı evə xatirə lövhəsi qoyulub.**

**2021-ci il aprelin 16-da Şixamir Qaflanova həsr olunan “Bir “Bəbir” kimi…” sənədli film çəkilib.**

**2021-ci ildə Zaqatala şəhəri Humanitar fənlər gimnaziyasına Vətən Müharibəsi Qəhrəmanı Şixamir Qaflanovun adı verilib.**

**Anası Mominət Qaflanova danışır:**

– Şixamir uşaqlıqdan diribaş idi. O, məktəbdə çox yaxşı oxuyurdu. Müəllimləri deyirdi ki, məktəbdə keçirilən yarış-



larda Şixamir hansı dəstədə olurdusa o dəstə mütləq qalib gəlirdi. Həmişə onun bacarığından, zirəkliyindən, dərslərini yaxşı oxumasından razılıqla söz açırdılar. Qardaşı Qurbanın hərbçi olmaq istədiyini bilən kimi dedi ki, mən də hərbçi olacağam. Buna görə də Gəncədə hərbi xidmətini başa vuran kimi, 2007-ci ildə orduya qayıtdı və MAHHXQ kimi xidmətə başladı.

**Qurban Qaflanov – qardaşı:**



– 2008-ci ildə hər ikimiz Daxili Qoşunların Hərbi məktəbinə daxil olduq. Təhsilimizi, təlimlərimizi uğurla tamamlayıb 2010-cu ildə leytenant rütbəsi aldıq. Arzularımıza uyğun Daxili Qoşunların sıralarında xidmətə davam etdik.

Sentyabrın 27-də mənə mesaj göndərdi: “Artıq döyüş əməliyyatlarına başladıq. Amma mənim bu döyüşlərdə olduğumu səndən başqa ailədə kimsə bilməsin, narahat olmasın”. Döyüşlərin ilk günlərində, ümumiyyətlə, telefonlar qapalı idi, əlaqə yox idi. 10 gün sonra, hərdən zəng edib bir kəlmə deyirdi: “Salamatam”. Amma 19-da çox şən səslə danışdı. Sonradan bildim ki, atam, anam, qardaşım, yoldaşı ilə də elə əhvalda danışıb. Hətta mən zarafatla dedim ki, deyəsən, məclis qurmusunuz. Güldü ki, hər şey istədiyimiz kimi gedir...

**Asif Qaflanov– qardaşı:**



– O, hərbi məktəbi bitirəndən sonra Zaqataladakı “N” saylı hərbi hissədə, Türkiyədəki təlimlərdən gələndən sonra isə Bərdədə xidmətə davam etdi. Sonra Qubaya göndərdilər. Müharibə zamanı zəng edəndə, “yaxşıyam, hər şey yaxşı olacaq”– deyib telefonu söndürürdü. Amma mən I Qarabağ müharibəsində iştirak etdiyimə görə, onun necə od-alov içində olduğunu hamıdan yaxşı bilirdim. Onu da bilirdim ki, Ali Baş Komandan əks-hücum əməliyyatı əmri veribsə, deməк ki, ordumuza arxayındır, hər şeyin qələbə ilə bitəcəyinə əmindir.

Oktyabrın 19-da mənə də zəng elədi. Həmişəki kimi 2 kəlmə yox, çox və fərqli danışdı. Elə bil toya gedirdi, sevinirdi.

**Elşən Məmmədov– xidmət yoldaşı:**



– O, rəqibi olmayan komandir idi. Həmişə istəyirdi ki, rəhbərlik etdiyi dəstə digərlərinə nisbətən lider olsun. Ona görə də istər fiziki hazırlıq, istərsə də atıcılıq məşğələlərində həmişə çalışırdı ki, birinci olsun. Tabeliyində olanlardan da cəsur olmağı tələb edirdi. 2020-ci ilin sentyabrında erməni təxribatlarının qarşısının alınması üçün əməliyyatlara cəlb olunduq. Onun sevinci yerə-göyə sığmırdı. Deyirdi, illərlə bu günü gözləmişik. Cəbrayıl istiqamətində gedən döyüşlərədək bir yerdə fəaliyyət



göstərmişik. Çox xeyirxah, mərd və iradəli komandir idi.

**Orxan Abdullayev–xidmət yoldaşı:**

– Atış hazırlığı olsun, fiziki hazırlıq olsun, taktika olsun,– fərq etməzdi, hər şeyi bizə öyrədirdi və öyrətdikləri töhfəni döyüş zamanı verdi.

Füzulinin Qaraxanbəyli kəndində mayor Qaflanovla bir yerdə döyüşə-döyüşə irəliləmişik. Onun şücaəti çox olub. Orada



olan bir epizodu danışım. Bir hərbi qulluqçumuz yaralanmışdı. Mayor Qaflanov yaralını və onun silahını özü ilə götürüb irəliləməyə davam etmişdi. Daha sonra İranla həmsərhəd Lələtəpə istiqamətində döyüşlərimiz olub. Arazboyu 132 kilometr ərazidə döyüşə-döyüşə irəliləmişik. Cəbrayıl, Füzuli, Hadrutda vuruşmuşuq. Son döyüşümüz Xocavənddə olub.

Oktyabrın 19-da strateji mövqeni götürmək tapşırığı verilmişdi. Saat 16.00 olardı. Komandir kəşfiyyat xarakterli müşahidələr apardı, hansı istiqamətlərdən hansı qrupların necə hərəkət edəcəklərini müəyyənləşdirdi. Tövsiyələrini verdi və hücuma başladıq. Mayor Qaflanova dedilər ki, siz orada olan digər qurumların üstündə qalın. O inadla təkid etdi ki, mənim dəstəm harada olsa, mən də orada olmalıyam. Öndə də özü getdi, düşmənin 10-larca hərbi qulluqçusunu məhv etdi.

**Elçin Məcidov–xidmət yoldaşı:**



– Mühüm yüksəkliklər– Cəbrayıl, Füzuli rayonları, Hadrut qəsəbəsi, Xocavənd rayonunun alınmasında xüsusi fəallıqla iştirak edib. Döyüşlər müxtəlif şəraitlərdə olurdu. Biz ən çox kəşfiyyat xarakterli döyüşlər aparırdıq. Gecə düşmənin arxasından irəliləyirdik. Koordinatlarını arxaya ötürərək, onları artilleriya atəşi ilə məhv edirdik. Amma bəzi mövqelər vardı ki, onu özümüz tutmalıydıq. Cəbrayıl rayonuna daxil olan bir yüksəklik var idi. Mayor Qaflanov şəxsən özü və mən digər yoldaşlarla həmin yüksəkliyə qalxdıq. Hadrut istiqamətində olan döyüşlərdə də komandir yüksək peşəkarlıq nümayiş etdirdi. Bir neçə düşmən maşınının pusquya salınması və məhv edilməsi əməliyyatlarına şəxsən özü rəhbərlik etdi. Bir manqa ilə, bir taqımla 60-dan yuxarı düşmən qüvvəsi məhv edildi. O, həmişə öndə gedirdi. Həmin döyüşdə 3 tərəfdən düşmən atəşi altında qalmışdıq.

## Bu son görüş, bu son vida...

Şixamir Qaflanov Vətəninə çox bağlı olan və torpaqların azad edilməsi üçün yüksək döyüş motivasiyası sərgiləyən bir xüsusi təyinatlı idi. Təzəcə ailə qurmuşdu. Ailəsinə qarşı çox qayğıkeş və mehriban idi. Ata olmağı çox arzulayırdı. Ancaq Vətən sevgisi o qədər yüksək idi ki, övladı dünyaya göz açdığı anda gəlmədi, yanında ola bilmədi. Qızı 21 gün küvezdə həyat mücadiləsi apardı. Ancaq şəhid mayorumuz qızının da özü kimi mübariz, dözümlü olduğunu və yaşayacağını deyirdi. Belə də oldu. Övladının 40-cı günündə qızı Mədinəni görmək qəhrəmanımıza nəsib oldu.

Şəhidin həyat yoldaşı Solmaz çox gəncdir, 27 yaşı var. Tibbi təhsili olsa da işləmir, körpəsini böyüdür. Ondan Şixamirlə bağlı xatirələrini soruşdum. 23 yaşında tək qalan Solmazın üzünə kədər çökdü, “bizim o qədər xatirəmiz yoxdur ki”,–dedi. O sözlərdə nə qədər yanğı, həsrət, sevgi gördüm... “Nə yaşadılar ki?”– deyə düşündüm. Hərbçinin həyat yoldaşı olmaq bir ayrı səbr, dözüm istər. Amma Solmaza səbr də, dözüm-iradə də sonra lazım olacaqdı...

**Solmaz Qaflanova danışır:**



– Cəmi 1 il ailəli olmuşuq. Eyni rayondan olsaq da biz yox, valideynlərimiz bir-birini tanıyıb. Bibisi qızının vasitəsilə 2018-ci ildə tanış olmuşduq. Bir il sonra –2019-cu il iyulun 21-də toyumuz oldu. Toyumuzdan cəmi 14 ay keçdi, əbədi ayrıldıq. Yaşadığımız o 1 ildə mən özümü xoşbəxt bilmişəm. Mərd idi, dürüst idi. Adətən, hərbçilər bir qədər sərt olurlar. Amma Şixamir çox mülayim idi. Hədsiz ailəcanlı idi. Sevgisini göstərə bilir, diqqətini, qayğısını əsirgəmirdi. Mən həyatın şirinliyini onunla dadıb, acısını yoxluğu ilə zəhər bilib içmişəm. O, dünyasını dəyişəndə Mədinə 2 aylıq idi.

Müharibə başlamazdan öncə, bir hərbçi olaraq məlumatlı olsa da, bu barədə heç nə demirdi. Zəng edəndə də yalnız halımızı soruşurdu. Mən onun döyüşdə olduğunu da neçə gün sonra bilmişəm. Onda da deyirdi, gələcəyəm, narahat olma. Axırıncı dəfə elə şəhid olduğu gün danışmışıq. Səhər saat 10-da zəng vurmuşdu. Ən çox uşağı soruşur, onunla maraqlanırdı. 5 günlük gəldi, uşağı gördü, getdi. O balasından da, həyatdan da doymadı. Qızı da ata nə olduğunu bilmədi.

İndi 4 il ötüb. Mədinə “Simurg-kindergarten” bağçasına gedir. Orada şəhidlərlə bağlı bütün tədbirlərdə fəal iştirak edir. Mən onu atasına layiq böyüdəcəyəm. Çalışacağam ki, o, Vətənin azadlığı yolunda canından keçən qəhrəman bir atanın qızı olduğunu anlasın. Onunla qürur duysun, fəxr etsin. Yoldaşlarının yanında müharibədən söz düşəndə onun da deməyə sözü olsun. Desin ki, torpaqlarımızın 30 illik işğaldan azad edilməsində mənim qəhrəman atamın da əməyi var.

...Beləcə daha bir qəhrəman şəhidin döyüş yoluna işıq salmaq istədik, ailəsini tanıdıq, körpə qızına uzun və sağlam ömür, həyat yoldaşına güc, dözüm və Şixamirin yadigarının atasına layiq böyüməsi yolunda çəkəcəyi hər əziyyətə qatlaşa bilməyi arzuladıq.

**Bu gün Zaqatalanın Üçüncü Tala kənd qəbiristanlığında yenə izdiham var. Vətən Müharibəsi Qəhrəmanı Şixamir Qaflanovun şəhidlik məqamına yüksəldiyinin 4-cü ildönümüdür. Rayon ictimaiyyəti, hərbçi yoldaşları, kənd sakinləri qəhrəman igidimizin anım gününə toplaşıblar. Bir həqiqət var ki, bütün şəhidlər kimi Şixamir də unudulmayacaq, dünya var olduqca, şəhidlər də yaşayacaq!**

*Zərifə HÜSEYNOVA*
*XQ*

İdman və sağlamlıq

# Üzgüçülüyə maraq artır

*Əlverişli şərait yaradılması bu idman növünü daha da kütləviləşdirə bilər*



**Üzgüçülük idman növləri arasında bütün zamanlarda dünyada populyarlığını qoruyub saxlayır. Onu əsrarəngiz gölləri, bol sulu çayları, hövzələri ilə məşhur olan, eyni zamanda, mülayim iqlim qurşağında yerləşən Azərbaycanda da inkişaf etdirmək çox əlverişlidir. Bəs bu idman növünə ölkəmizdə maraq necədir?**

Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti Tamerlan Abdullazadə ilə üzgüçülüyün ölkəmizdə inkişafı, kütləviləşməsi, əldə edilən nailiyyətlər və gələcək perspektivlərlə bağlı müsahib olduq. Qurum rəsmisi Azərbaycanda üzgüçülüyün tarixinin XX əsrin əvvəllərinə təsadüf etdiyini, məhz həmin zaman Bakıda ilk şəhər çimərliyinin açıldığını dedi:

– Məlumata görə, ilk dəfə 1910-cu ildə gimnastika müəllimi V.Qrjibovski Bakı gimnaziyası və realni məktəbinin şagirdləri üçün üzgüçülük məktəbi təşkil edib. Artıq 1912-ci ilin yayında Dənizkənarı Bulvarda Bakı Gimnaziyasının şagirdləri Xəzər dənizində "böyrü üstə" üsulu ilə 48 kilometr məsafəni 24 saat 10 dəqiqəyə üzmüş fransız dili müəllimləri Leonid Romençenkonu alqışlayıblar. Bu o illər üçün çox böyük nəticə sayılırdı. 1913-cü ildə isə Bakı Üzgüçülük Məktəbində 200-dən çox adam bu idman növü ilə məşğul olub.

***– Böyük nailiyyətlər başlanğıcını uşaq idmanından götürür. Üzgüçülüyün uşaqlar arasında kütləviliyinin təmin edilməsi ilə bağlı hansı işlər görülür? İndiyədək həyata keçirilən layihələr bəhrəsini verirmi?***

– Üzgüçülük Federasiyası uşaq və gənclər arasında üzgüçülük idman növünə marağın artırılması istiqamətində Gənclər və İdman Nazirliyi ilə birgə bir çox layihələr həyata keçirib. Bu işlər bu gün də davam edir. Bunlara "Birlikdə üzək", "Kürü keçək?!", "Parlaq ulduz" layihələrini misal çəkmək olar. Nazirliklə birgə layihəmiz olan "Birlikdə üzək" yarışlarını vurğulamaq istərdim. Layihə çərçivəsində eyni anda ölkənin 30 idman qurğusunda 9 yaşdan yuxarı qadın və kişilər arasında bütün yaş qruplarında peşəkar idmançılar və həvəskarlar öz güclərini sınayıblar.

Ardıcıl olaraq Bakı, Sumqayıt şəhərlərinin, Bakıətrafı kənd və qəsəbələrin uşaqları arasında təşkil olunan açıq çempionatlar, eləcə də regionlarımızda keçirilən yarışlar uşaqlar və gənclər arasında bu idman növünə marağı xeyli artırıb. Bundan başqa, federasiya rəhbərliyinin tapşırığına



əsasən, mütəxəssislərimiz kütləvi informasiya vasitələri ilə daim üzgüçülüyün təbliği, suyun və üzməyin insan sağlamlığına önəmi barədə çıxışlar edirlər. Son illər həyata keçirdiyimiz layihələr artıq bəhrəsini verməkdədir.

Bu gün Azərbaycanın milli komandasının tərkibində idmançılar arasında bir nəfər də olsun legioner yoxdur. Planlı şəkildə həyata keçirdiyimiz layihələrin sayəsində artıq milli komandamızda çox qabiliyyətli və bacarıqlı idmançılarımız var.

***– Perspektivli uşaqlar komandaya necə cəlb edilir? Uşaq-gənclər idman məktəbləri, cəmiyyət və klublarla iş necə qurulub? Sizcə, orta təhsil müəssisələrində maarifləndirmə ilə uşaqlarda üzgüçülüyə maraq oyatmaq olarmı?***

– İl ərzində təşkil edilən yarışlarda Azərbaycanın müxtəlif şəhər və rayonlarından yüzlərlə idmançı öz gücünü sınayır. Hər il yay və qış fəsillərində açıq ölkə birinciliyi təşkil olunur. Bu yarışlara da regionlardan seçilmiş üzgüçülər dəvət alır. Belə turnirlərdə milli komandanın məşqçilər korpusu ən perskpektivli və bacarıqlı idmançıları seçərək komandaya cəlb edir. Xüsusi proqramların köməyi ilə əlavə məşqlər təşkil olunur.

Federasiya üzgüçülük bölmələri olan bütün uşaq-gənclər idman məktəbləri, cəmiyyət və klublarla sıx əməkdaşlıq edir. Həmin müəssisələrdə üzgüçülük dərsləri tədris edən müəllimlərin ixtisaslarını ar-



tırmaq məqsədilə treninqlər təşkil edirik. Eyni zamanda, əcnəbi mütəxəssislərin dəstəyi ilə davamlı keçirilən ustad məşqələrində yerli məşqçilərimizə uşaqlara üzgüçülüyün müasir biliklərinin aşılanması istiqamətində dərslər verilir. Onlar sonda xüsusi sertifikatlar alırlar. Bütün bu tədbirlər öz səmərəsini göstərməkdədir.

***– Beynəlxalq yarışlarda əldə edilən nəticələr qənaətbəxşdirmi?***

– Qeyd etdiyim kimi, üzgüçülük üzrə milli komandamızda artıq legioner yoxdur. Son illər beynəlxalq yarışlarda ölkəmizi ancaq yerli idmançılarımız təmsil edirlər. Onlar mötəbər yarışlarda tam yüksək nəticələr göstərməsələr də, artıq Avropa və dünya səviyyəli turnirlərdə müsbət nəticələrimiz var. Məsələn, Xorvatiyanın Dubrovnik şəhərində keçirilən "GOLDEN ORLANDO" adlı beynəlxalq turnirdən idmançılarımız 27 medalla vətənə dönmüşdülər. Macarıstanın Şopron şəhərində keçirilmiş və Almaniya, Fransa, Macarıstan, Slovakiya, Xorvatiya kimi güclü komandaların iştirak etdiyi yeniyetmələr arasında beynəlxalq turnirdə komandamız 14 qızıl, 8 gümüş, 10 bürünc medal qazanmışdılar. Riqada Latviyanın gənclər və yeniyetmələrinin yarışında 200 metr məsafədə 4 dəfə sərbəst üsulda üzmədə kişilər arasında komanda yarışlarında idmançılarımız yüksək nəticə göstərərək turnirin qalibi olublar.

Bundan başqa, şəxsi yarışlarda üzgüçülərimiz yüksək mükafatlara layiq görülüblər.

Rusiyada universitetlər arasında keçirilən "Rektor Kuboku" yarışlarında üzgüçülərimiz, ümumilikdə, 2 qızıl, 4 gümüş, 3 bürünc medal qazanıblar. "Asiya uşaqları" VIII Beynəlxalq İdman Oyunlarında üzgüçülərimiz 2 qızıl, 2 gümüş və 2 bürünc medalla vətənə qayıdıblar. Belə yarışların və qazanılan uğurların sayı çoxdur və bu, bizi sevindirir.

***– Yaxın gələcəkdə Dünya və Avropa çempionatlarından yüksək mükafatlar gözləyə bilərikmi?***

– Üzgüçülük üzrə milli komandamızın tərkibində perspektivli idmançılarımız çoxdur. Məsələn, sonuncu Olimpiya Oyunlarında ölkəmizi təmsil edən Ramil Vəlizadə və Məryəm Şeyxəlizadəxangah, bundan başqa Əbdürrəhman Rüstəmov, Oqtay Hüseynov, Süleyman İsmayılzadə, Səid Həmidov, Mehri Əbdürrəhmalı, Məryəm Cavadova, Anastasiya Bobirikina perspektivli üzgüçülərimizdəndir.

Milli komandanın məşqçilər korpusu bu idmançılara böyük ümid bəsləyir. Onlar artıq bir çox beynəlxalq yarışlarda, Avropa və dünya səviyyəli turnirlərdə yaxşı nəticələr göstəriblər. Bu idmançılar yaradılan münbit şəraitdə peşəkar məşqçilərin rəhbərliyi altında öz kvalifikasiyalarını artırırlar və ümidvarıq ki, yaxın gələcəkdə onlar böyük nəticələr qazanacaqlar.

***– Klubların hazırkı fəaliyyəti sizi qane edirmi?***

– Əvvəlki illərlə müqayisədə, hazırda çox yaxşı şəraitlə təchiz olunan idman klublarımız var. Bu klublarda peşəkar üzgüçülüklə məşğul olan idmançılar yetişir. Federasiya ölkə daxilində keçirilən yarışlarda iştirak üçün onların idmançılarına dəvət göndərir. Məşqçilərinin bilik və bacarıq səviyyələrini artırmaq məqsədilə mütəmadi tədbirlərə onları da dəvət edirik. Hesab edirəm ki, həmin klublarda peşəkar idmançılar yetişdirmək üçün məşqçilərin bilik səviyyələrini daha da artırmağa ehtiyac var.

***– Üzgüçülük inkişaf etməkdə olan idman növlərindəndir. Onun daha da populyarlaşması üçün gələcəkdə hansı işlər görülməlidir?***

– Gənclərlə görüş zamanı Prezident İlham Əliyev ən çox sevdiyi idman növünün üzgüçülük olduğunu qeyd edib: "Sevimli idman növü məsələsinə gəldikdə isə, deməliyəm, yəqin, dəniz sahilində böyümüş insan üçün, təbii ki, bu, üzgüçülükdür. Mən şadam ki, indi Azərbaycanın, demək olar, hər bir şəhərində üzgüçülük hovuzu var. Mənim fikrimcə, bu, həm sağlamlıq üçün, həm də mənəvi vəziyyət üçün ən yaxşı idman növüdür".

Bu gün Bakıda və Azərbaycanın bütün bölgələrində üzgüçülüyə maraq çox artıb. Valideynlər övladlarını hələ uşaq yaşlarından su idman növləri ilə məşğul olmağa üstünlük verirlər. Biz də federasiya olaraq həm orta ümumtəhsil məktəblərində, həm də gənclər arasında üzgüçülüyün inkişafı məqsədilə maarifləndirici görüşlər keçirməyi, o cümlədən də kütləvi informasiya vasitələrinin köməyi ilə təbliğatı daha da gücləndirməyi planlaşdırırıq.

***Müsahibəni apardı:***
***Leyla QURBANOVA***
***XQ***

**Redaksiyadan:** ***Üzgüçülüyün geniş yayılması üçün təmiz və təhlükəsiz su hövzələrinin yaradılması, idman hovuzlarının həvəskarlar üçün əlçatan olması önəmli şərtlərdir. Klub hovuzlarına girişin bahalığı, çay və göllərdə təhlükəsiz yerlərin azlığı Xəzərsahili zonaların hasarlara alınması, üzgüçülüyün populyarlaşması və kütləviləşməsi üçün ciddi əngəl yaradır. Bu mövzuda mütəxəssis və oxucularımızı müzakirəyə dəvət edirik.***

XQ aydınlıq gətirir

# Təcili tibbi yardım xidməti ödənişli olmayacaq

**Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinin təkmilləşdirilməsi və inkişaf etdirilməsinə dair brifinqdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanov 2024-cü ilə kimi 349 ambulans alındığını diqqətə çatdırıb. Bildirib ki, proses cari ildə də davam etdirilib və mart ayında daha 100 avtomobil ölkə başçısına təqdim olunub. Bakı və regionlar üzrə təhkim olunan avtomobillərdən 66-sı sadə diferensiallı, 3-ü psixiatrik, 20-si reanimobil, 1-i portativ rentgen aparatlı və 10-u perinatal küvəzli olub.**



**V.Qurbanov qeyd edib ki, ambulans parkı tamamilə yenilənəcək. O vaxta kimi də nəqliyyat vasitələrinin alınması prosesi davam etdiriləcək:**

– Yeni alınan ambulanslar ekoloji təmiz nəqliyyat vasitəsi olacaq. Bu da "Yaşıl dünya" konsepsiyası çərçivəsində həyata keçirilən tədbirlərə uyğundur.

İnnovasiya və Təchizat Mərkəzi cari ilin sentyabr ayında "Yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 80 ədəd təcili tibbi yardım avtomobilləri"-nin satın alınması məqsədilə dövlət satınalmalarına başlayıb. Satın alınması nəzərdə tutulmuş avtomobillər texniki spesifikasiyasına görə sadə diferensiallı standart və reanimobil təcili tibbi yardım avtomobilləri olacaq. Eyni zamanda, avtomobillərdən 5-i tam elektrikli avtomobillərdir. Belə avtomobillərin daxili təchizatına tibbi avadanlıqlarla təminat daxildir. Ambulanslar 2024-cü il istehsalı olub, sürətli enerji yığma qabiliyyəti, həyəcan işıqlanma siqnalları sistemi, tibbi təyinatlı cihaz, avadanlıqlarla təchizat üçün funksionallıq, eləcə də arakəsmə və dolablarla təchiz edilmə kimi xüsusiyyətlərə malik olacaq.



**Vüqar Qurbanov ölkəmizdə yaxın illərdə təcili tibbi yardım xidmətinin pullu olacağı barədə dolaşan xəbərlərə də aydınlıq gətirib:**

– Vətəndaşlara təcili təxirəsalınmaz yardım bütün dünyada icbari tibbi sığorta ilə qarşılanır və dövlətin birmənalı olaraq pulsuz tibbi xidmətidir.

Amma gələcəkdə təcili tibbi yardımı əsassız çağırıb, hər hansı problemini həll etmək istəyənlərə bu xidmət ödənişli ola bilər. Çünki təcili olmayan hallarda, məsələn, "ayağım ağrıyır, başım ağrıyır" kimi məsələlərə görə təcili tibbi yardımı çağırmaq olmaz. Belə çağırış zamanı İTS xərcləri düzgün xərclənmir. Ona görə beynəlxalq praktikada belə çağırışlar ödənişlidir. Növbəti ildə də təcili tibbi yardımın pullu olması gözlənilmir. Bu xidmət tam ödənişsizdir.

***Z.BƏŞİRQIZI***
***XQ***

# Ləğv prosesində olan "Muğanbank" ASC-nin qorunan əmanətçilərinin diqqətinə!




Məlum olduğu kimi, Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 24 oktyabr 2023-cü il tarixli, 2-3(103)-54/2023 qərarı ilə "Muğanbank" ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi təyin edilmişdir.

Diqqətinizə çatdırırıq ki, LPO "Muğanbank" ASC-nin qorunan əmanətçilərinə kompensasiyaların ödənilməsinin yeri və vaxtı haqqında məlumat verilməsinə dair ilk bildiriş 1 noyabr 2023-cü il tarixdə KİV-lərdə dərc edilmişdir.

"Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Qanunun tələblərinə əsasən LPO "Muğanbank" ASC-nin qorunan əmanətçiləri üçün bu müddət 1 noyabr 2024-cü il tarixdə bitir. Bildiririk ki, kompensasiyaların ödənilməsi "Kapitalbank" ASC və "ABB" ASC vasitəsilə həyata keçirilir.

Məlumat üçün bildiririk ki, əmanətçinin müraciətini qeyri-mümkün etmiş halların mövcud olduğunu təsdiq edən sənədlər təqdim edildikdə sözügedən bir il müddət əmanətçinin ərizəsinə əsasən uzadıla bilər. Lakin bundan asılı olmayaraq bütün hallarda əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq 5 (beş) il müddətində saxlanılır.

Əlavə olaraq qeyd edirik ki, ötən ilin noyabr ayının 27-dən cari ilin oktyabr ayının 18-dək LPO "Muğanbank" ASC-nin 7434 əmanətçisinə 198,278,930.92 manat ekvivalentində (ümumi kompensasiya öhdəliyinin 97%-i) kompensasiya ödənişi həyata keçirilmişdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 230 (30634) 19 oktyabr 2024-cü il, şənbə

İdman xəbərləri

# Mingəçevir avarçəkməsində 24 medal

**Azərbaycan avarçəkənləri “Mingəçevir Reqatası-2024” beynəlxalq yarışının son günündə daha 13 medal qazanıblar.**



Akademik növdə Azər İlyasov–Tunar Məmmədzadə və Nurlan Paşayev–Cahangir Məmmədli 1-ci yeri tutublar. Sabit Abdullayev–Fikrət Həsənov və Məhəmməd Niftullayev–Nemət Həsənov dueti isə müvafiq olaraq, 2 və 3-cü yerlərdə qərarlaşıblar. Həmin idmançılar 1500 metr məsafədə fərqləniblər.

Kayakda Niyaz Məlikov–Emil Zeynalov cütü 2-ci, Qiyas Əhmədov–Sübhan Həsənov cütü isə 3-cü yerləri tutublar. Tək nəfərlik kayak qayığında Amil Ramazanov gümüş medal alıb. Bu idmançılar 1000 metr məsafəyə yarışda fərqləniblər.

200 metr məsafə üzrə yarışda Qiyas Əhmədov–Sübhan Həsənov cütü iki nəfərlik kayak qayığı ilə hamını üstələyib. Vacib Babayev–Şahin İsayev və İvan Vorobyanski–Hüseyn Həsənov 2-ci, İbrahim Məmmədzadə–Elmir Tarverdiyev cütü 3-cü olub. 1000 metr məsafəyə akademik avarçəkmədə (2010-2011) Məhəmməd Həsənov–Raul Şamilov dueti gümüş, Yusif Əliyev–Ruslan Fərəcov cütü bürünc mükafata layiq görülüb.

Beləliklə, Azərbaycan idmançıları yarışı 6-sı qızıl, 9-u gümüş, 9-u bürünc olmaqla 24 medalla başa vurublar.

# Stronqmençilərimizin Avropa uğuru

**İspaniya Krallığının Madrid şəhərində “Arnold Classic Europe 2024” idman festivalı çərçivəsində keçirilən Avropa çempionatında Azərbaycan Stronqmen Federasiyası ölkəmizi uğurla təmsil edib.**



Federasiyanın rəhbəri dəfələrlə Dünya və Avropa çempionu Bəxtiyar Quliyev (100 kq) master, onun komanda yoldaşı Vüqar Namazov (+140 kq) Open və Master divizyonlarında “Deadlift” (yerdən dartma) hərəkəti üzrə qızıl medal qazanmaqla, dünya rekorduna imza atıblar. “Strict Curl” üzrə isə Namiq Cəfərov (82.5 kq) və Fəridə Paşayeva Master və Open divizyonlarında yüksək nəticə qazanaraq mütləq çempion olublar. Nicat Hüseynov isə stronqmen üzrə 110 kq çəki dərəcəsində ayrı-ayrı hərəkətlərdə 3 gümüş, 1 qızıl medal qazanmaqla Avropa 2-cisi olub.

Yığmamızın digər üzvləri Mehdi Hacızadə (56 kq), Əziz Şükürov (56 kq, gənclər), Özcan Babazadə (60 kq), Akşin İsmayılov (82.5 kq), Sadiq Musayev (90 kq), Zaur Abbasov (100 kq), Cəlil Əliyev (110 kq), Əli Əliyev (110+ kq), İlkin Namazov (140 kq) ayrı-ayrı hərəkətlərdə qalib və mükafatçı adına layiq görülüblər.

*Leyla QURBANOVA*
*XQ*

Maraq dünyamız

# Cənab Freyd, icazə verin sizinlə razılaşmayaq

**Ünlü filosof Ziqmund Freydin bir fikri uzun müddətdir ki, mənə rahatlıq vermir. O, vaxtilə deyirdi ki, böyük zaman məsafəsi olan kitabları, əsərləri yeni dövrdə təkrarən nəşr etdirmək, yaymaq o qədər də məna kəsb etmir. Həmin əsərlər yalnız yazıldığı dövrün xronikasıdır, onlar bu günü özündə ehtiva edə bilməz.**



Z.Freyd doğrudanmı belə yanlış qənaətə gəlib? Axı insanlığın keçdiyi tarixi inkişaf yolu haqda bildiklərimizə görə biz məhz kitablara, klassiklərə borcluyuq. Ola bilsin ki, bu ifadə zamanlar arasında kəskin fərqlilikdən deyil, müəllif–oxucu anlaşılmazlığından, onlar arasındakı uçurumun zamanın da yardımı ilə dərinləşməsindən doğmuşdu.

Frans Kafkanın qan qusaraq ölümünü gözlədiyi halda yazdığı “Amerika” əsərini yaşamaqdan dördəlli yapışmış dünyagir oxucu heç vəchlə anlaya bilməz. Norveçli nobelçi Knut Hamsunun küçələrdə səyyar satıcılıq etdiyi, bir qarnı ac, bir qarnı tox yaşadığı anları, şaxtalı Oslo gecələrində acından ölməmək üçün minbir əziyyətlə qəzetlərə məqalələr yazmasını təsvir etdiyi avtobioqrafik səciyyə daşıyan “Aclıq” romanını isti evində oturub toxluqdan qarnını sığallayan oxucunun anlaması sizcə, asandırmı?

Özü də bu günün oxucusu o vaxtın Hamsununu heç sevməz. Çünki yazıçı 40-cı illərdə faşizmi təbliğ edib. Axı dünyanın ən yüksək əmək haqqını alan norveçli Hamsunu necə başa düşə bilər?!

N. Ostrovski “Polad necə bərkidi”ni ölüm yatağında arvadı Raisaya diktə edib. Mən bu əsəri oxuduqdan sonra yazıçının yırtıcı iradəsi qarşısında baş əydim. “Satqın bədənin xəyanətləri” ona göz açmağa aman vermirdi, amma o, durmadan, fasiləsiz olaraq əsər üzərində işini davam etdirirdi.

Ostrovskinin ən çox sevdiyim cümləsidir:



“Həyat dözülməz olanda da yaşamağı bacar!” Pavel Korçaginin dilindən deyilib. Axı bizə həmişə Pavel Korçaginlər lazım olacaq?! Mübarizədən yorulmayan, bezməyən, usanmayan qəhrəmanları məhz belə əsərlər yetişdirir. O yazıçılar o şeylərdən yazıblar ki, onlar insanlıq üçün əbədi dəyərlər olaraq qalır və bundan sonra da qalacaq.

Məgər dahi Freyd bu adi həqiqətləri bilmirdimi? Bilirdi, sadəcə, Freyd oxucunun yazıçını heç vaxt anlaya bilməyəcəyini də anlayırdı.

Freyddən sonrakı insan kosmosa yol açdı, texniki inqilablar etdi. Amma nə olsun? İnsan beyninin mikrosxemində zərrə qədər də dəyişiklik oldumu? Xeyr. Kafkanın həşərata çevrilən Qreqor Zamzası isə yazıçı laboratoriyasında hazırlanmış xüsusi insan tipidir.

Gəlin, bu yerdə Freydlə razılaşmayaq. Onun fikrinə qarşı Sartrın insanını qoyaq. Sartrın insanı isə prosesin sonudur. Bu nəzəriyyəyə əsaslansaq, insan özünüsübutun, özünütəsdiqin sonuna hələ çatmayıb. Belə olduqda, ona yardımçı olacaq yeganə nəsnə zamanca bizdən uzaq olan kitablardır, o kitablara qayıtmaq, onları dönə-dönə oxumaq, kamilləşməyə doğru can atmaq insanın gündəlik qida rasionunda həmişə yer tutmalıdır. Mənəvi qida dietanı sevmir. Aramsız mütaliə nəticəsində insan özünü kəşf edə bilər. Mənim gəldiyim qənaət budur.

Cənab Freyd, icazə verin, sizinlə razılaşmayaq!

***Kənan HACI,***
***yazıçı-publisist***

# “Mənim qızıl payızım”



# ABŞ-də ağdərililəri niyə qafqazlı adlandırırlar?

**XVIII əsrin sonlarında alman alimi İohan Blumenbax bəşəriyyəti 5 irqə – ağ, sarı, qara, qırmızı və qəhvəyi irqlərə bölmüşdü. Ağdərililər daha üstün irq sayılmışdı, çünki onlar daha gözəl idilər. Blumenbax isə qafqazlıları ən gözəl hesab etmişdi. Ona görə də Qafqazı ağların ata-baba yurdu elan etmişdi.**



O, əslində, 1785-ci ildə Göttingen Universitetinin professoru Kristof Maynersin fikirlərini inkişaf etdirmişdi: “İnsanlıq 2 əsas irqdən ibarətdir: Qafqaz və monqol, ikincisi fiziki və əqli cəhətdən çox zəifdir”. İrqi nəzəriyyə özünü doğrultmadı, lakin bu termin bir çox dillərdə möhkəmləndi.

***FİDAN***
***XQ***

# Cəlilabadda ağacəkmə aksiyası

**Cəlilabadda “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ağacəkmə aksiyası təşkil edilib. Aksiya Ələt-Astara magistral avtomobil yolunun Cəlilabad rayonu ərazisindən keçən hissəsində keçirilib.**

Ağacəkmə aksiyasında rayon icra hakimiyyətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində rayon ərazisində yaşıllıqların artırılması məqsədilə 10 min ağacın əkilməsi, həmçinin yaşıllıqlara qulluq və abadlıqla bağlı tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

***XQ***

# Bugün də yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 19-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə çiskinli olacağı, axşam isə yağış yağacağı ehtimalı var.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək, səhər mülayimləşəcək. Gecə 13-15°, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə və gündüz 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-14° , gündüz 15-18°, dağlarda gecə 0-4°, gündüz 4-8° isti olacaq.



***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2374
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00